HÜSEYN KÜRDOĞLU

# AYTƏNİN NƏĞMƏLƏRİ

Bakı – «Sabah» – 2009

*Redaktoru:* **Şirindil Alışanlı**

*Tərtib edəni:* **İlham Alışanlı**

**Hüseyn Kürdoğlu.** ***Aytənin nəğmələri.***
*Bakı, «Sabah», 2009, 172 səh.*

ISBN 5-86106-033-9

Kitaba XX əsr Azərbaycan şerinin görkəmli nümayəndəsi Hüseyn Kürdoğlunun uşaqlar üçün yazdığı şerlər toplanmışdır.

4702060102
029 - 2009

© «Sabah» nəşriyyatı, 2009

# VƏTƏN SİNƏMİZDƏ ÜRƏYİMİZDİR

## VƏTƏN

Od yurdunun övladıyam,
Doğma məkanımdır vətən.
Müqəddəsdir anam təki,
Gözümdür, canımdır vətən.

Dağları göylərə dirək,
Xəzəri köksündə ürək.
Mahal-mahal gəzəm gərək,
Dağım-aranımdır vətən.

Çağlayır Kürü, Arazı,
Tar-kamanı, telli sazı.
Dünyaya düşür avazı,
Şöhrətim-şanımdır vətən.

Tarixlərdə çoxdur izi,
Oxumağa səslər bizi.
Bal kimi şirindir sözü,
Şerim-dastanımdır vətən.

Qoynunda doluram yaşa,
Arzularım yetir başa.
Əzəldən gözəl tamaşa —
Azərbaycanımdır vətən.

26 fevral, 2002

## GÜNƏŞ

Gəl, gözəl günəşim, gəl,
Müqəddəs atəşim, gəl.
Qarlı zirvələrdən aş,
Köynəyin qızıl qumaş.

Qoy coşub-daşsın həyat,
Sənindir bu kainat.
Saçını hörükdən aç,
Dünyamıza şəfəq saç.
Əzizdir adın sənin,
Qaralmaz odun sənin.

28 oktyabr,
2002

## BALACA RƏSSAM

*Nəvəm Daşqına*

Şəkər balam, al fırçanı,
Murovu çək, Şahdağı çək.
Göy çəməndə ağ çadırı,
Daşdan axan bulağı çək.

Sürülər sel kimi daşır,
Dağların çiynindən aşır.
Çobanlar dağa yaraşır,
Başında yun papağı çək.

Kəklik uçub daşa gəlir,
Tappıltısı xoşa gəlir.
İki qoç baş-başa gəlir,
Çək, a quzum, yaylağı çək.

Saca yuxa salır nənə,
Üzündə tər dənə-dənə.
Başına şal örtüb yenə,
Şalındakı saçağı çək.

Baban şer yaza-yaza,
Aşıq mizrab vurub saza.
Bax bu dağa, bax bu yaza,
Tez dur, gün doğan çağı çək!

## SON ZƏNG

Dostlar, sizin son zənginiz mübarək,
Sevinc də var, həsrət də var bu səsdə.
Həm ayırır, həm vüsala yetirir,
Heyrət də var, şöhrət də var bu səsdə.

Düz yol tapıb ucaldıqca dünyada,
Unudulmaz bu xoş avaz, xoş səda.
Qorxunuz yox tufan qopsa dəryada,
Bir yenilməz qüdrət də var bu səsdə.

Üzlərdəki nə həyəcan rəngidir,
Gah coşdurur, gah sərnidib səngidir.
Ədalətin sazındakı «Cəngi»dir,
Hikmət də var, qeyrət də var bu səsdə.

Məktəbimiz neçə nəslin anası,
Qanad açır hər şahini, sonası.
Düşünsəniz çox dərindir mənası,
Ülfət də var, şəfqət də var bu səsdə.

Eşqinizlə ucaldın bu torpağı,
Əyilməsin onun zəfər bayrağı.
Yurdumuzdan kəsilsin yad ayağı,
Düşmənlərə nifrət də var bu səsdə.
Dostlar, sizin son zənginiz mübarək,
Sevinc də var, həsrət də var səsdə.

## MƏKTƏBLİLƏR ŞƏRQİSİ

Uca-uca dağlarında qar gözəl,
Yaşıl-yaşıl bağlarında bar gözəl.
Göygölümüz Kəpəz dağın aynası,
Dünyada yox belə bəxtiyar gözəl.

Dönür gündən-günə gülzara Bakı,
Ürəkdir bu ana diyara Bakı.
Üçrəngli bayrağı ucaldır göyə,
Xəzər sahilində aypara Bakı.

Bu torpaq Od yurdu Azərbaycandır,
Gecələr işığı bir kəhkəşandır.
Gözəldir Şirvan da, Muğan da, Mil də,
Qubanın Şahdağı ürəkaçandır.

Lalədən don geyir hər bahar çağı,
Gül-çiçək bürüyür dərəni, dağı.
Vətənin gülşəni heyran eyləyir,
Uzaq ölkələrdən gələn qonağı.

Vətən gözümüzün gur işığıdır,
Bütün ömrümüzün yaraşığıdır.
Gülər baxışların xoş təbəssümü,
Sanki gün işığı, ay işığıdır.

Vətən sinəmizdə ürəyimizdir,
Min bir çiçək açan diləyimizdir.
Yurdun düymə boyda qara daşı da,
Parlaq inci kimi gərəyimizdir.

## MÜƏLLİM

Bir insan ki, doğmalar tək əzizdir,
Müəllimdir onun adı, müəllim!
Qəlbi çeşmə, kamalı bir dənizdir,
Hər bir kəsin ilk ustadı müəllim.

Şəkər qatır söz öyrədən dilinə,
Gül yaraşır qələm tutan əlinə.
Dağlar yarıb, yollar açır elinə,
Vətən oğlu, el Fərhadı müəllim.

Ulduz varmı gülümsəyən gözü tək,
Hamımızı görmək istər özü tək.
Əziz tutur öz oğlu, öz qızı tək,
Yurdumuzda hər övladı müəllim.

İdrak ilə kök bağlamış əslimiz,
Qönçələnir bizim də bar fəslimiz.
Gələcəyə qanad açır nəslimiz,
Vermiş bizə bu qanadı müəllim.
Bir insan ki, doğmalar tək əzizdir,
Müəllimdir onun adı, müəllim!

1.10.1999.

## TƏZƏ İLİM

*Şaiq üçün*

Gəl, ay mənim təzə ilim,
Qış günü qar gətir bizə.
Yaz gələndə durnaları,
Qatar-qatar gətir bizə!

Ağ şölədir qar çiçəyi,
Yeddi rəngdə bar çiçəyi.
Oda dönsün nar çiçəyi,
Bağ dolu bar gətir bizə!

Qartal göydə süzə-süzə,
Göllərdə sonalar üzə.
Dağdan-dağa, düzdən-düzə,
Min laləzar gətir bizə!

Azad olsun torpağımız,
Qarabağ – cənnət bağımız.
Qıy çəksin Laçın dağımız,
Enməz vüqar gətir bizə!

Doğru sözü kimdir yozan,
Öz ömrünə məzar qazan?!
Kürdoğlutək şer yazan,
Bir nəğməkar gətir bizə!

23 dekabr, 1996

## BİZİM MƏKTƏB

Bizim gözəl məktəbin şöhrəti var, adı var,
Odur anamız kimi əziz, mehriban bizə.
İdrakın günəşindən zehnimizə pay verir,
Sınanmış qəvvaslarıq, elmdir ümman bizə.

Ən böyük dərsimizdir bu torpağa məhəbbət,
Vətən məhəbbətinin bayrağıdır sədaqət.
Kamala yetənlərə həmdəm olur səadət,
Açılır qapı-qapı bu sonsuz cahan bizə.

Burda hər saat, hər gün kəşf edirik aləmi,
Qılıncdan kəskin olur fikrin qızıl qələmi.
Elm – dərin bir ümman, məktəbimiz bir gəmi,
Əziz müəllimlərdir şanlı kapitan bizə,
Bizik yurdun sabahı, göz dikir zaman bizə.

## KƏSİLİB YOLU DAĞLARIN

Divə dönüb Qara Keşiş,
Kəsilib yolu dağların.
Sanki qılıncla vurulub,
Qanadı-qolu dağların.

Dediyindən dönmür yağı,
Sönər xainin ocağı.

Yanırmı dili-dodağı,
Çeşməli-sulu dağların?!

Baxdım yaralı daşına,
Çaylar dönüb göz yaşına.
Hər gün tökülür başına,
Güllədən dolu dağların.

Çoxdur bu dərdin ağrısı,
Qudurub torpaq oğrusu.
Oyanıb qoç Koroğlusu,
Basılmaz ulu dağların.

## ŞAİQ BABA

*(Nəvəm Şaiqə)*

Şaiq baba – nəsillərin babası,
Borçalıdır ilk yurdu, ilk obası.
Qızıl günəş onun şairlik tacı,
Özü dağdır, ağ dumanlar əbası.

Könüllərdə əbədi bir izi var,
Bizdən ötrü kitab-kitab sözü var.
Kim deyər ki, köçüb gedib dünyadan,
Hər sözündə surəti var, özü var.

Şaiq baba – ustadların ustadı,
Xalqımızın bir müqəddəs əcdadı.
Uca tutdum şöhrətini, adını,
Mən də onun bir adaşı, övladı.

28 aprel, 2001

## UĞURLA GƏL

*Toğrul üçün*

Uğurla gəl, ay təzə il,
Qarabağı qaytar bizə!
İşıqlını, Ərimәzi,
Dəlidağı qaytar bizə!

Azad olsun xan Hәkәri,
Oddan çıxart Kəlbəcəri.
Qalmasın düşmən əsəri,
O torpağı qaytar bizə!

Dumandır Pəriçınqılı,
Qul Alı uludur, ulu.
Dörd yanı çəmənli, sulu,
Göy yaylağı qaytar bizə.

Dustaqdır Haramı, Gəyən,
Bar-bəhəri budaq əyən.
Nemətini yağı yeyən,
Bağça-bağı qaytar bizə.

Qan deyəni qandırarıq,
Qoç Nəbini andırarıq.
Sönənləri yandırarıq,
Sən ocağı qaytar bizə,
O torpağı qaytar bizə.

23 dekabr, 1996

## AYSELİN SUALLARI

— Nənəcan, ay nənəcan!
— Nədir, gözünə qurban?
— Sənə bir sualım var:
Gəlsə bütün dığalar,
Bizim uca dağları
Yerdən qopara bilər?
— Yox, ay quzu ceyranım,
Mənim ciyərim-canım.
Gəlsə bütün dığalar,
Dağ nədir, dırnağınca
Daş da qopara bilməz.
— Onda Qarabağ necə,
Gəlsə bütün dığalar
Uzun, iti bıçaqla
Kəsib apara bilər?
— Yox, yox körpə mələyim,
Şirin-şəkər diləyim.
Gəlsə bütün dığalar
Qarabağdan zərrə də,
Toz da apara bilməz.
— Sən nə yaxşı nənəsən,
Qoy öpüm gözlərindən!

1993

## QAR YAĞIR

Ələnir lopa-lopa,
Qar necə hamar yağır.
Ağdır anamın saçı,
Qar üstünə qar yağır,
Qar necə hamar yağır.

Qoy əsməsin küləklər,
Şəhidlər oyanmasın.
Al qana boyananlar
Ağ rəngə boyanmasın.
Deyirlər qar deyil bu
Göydən yerə bar yağır.
Buludun çiçəyidir,
Məzarların üstünə
Gör necə hamar yağır,
Qəbristana qar yağır.

Yatır şəhid qardaşım,
Yatır igid qardaşım.
Uşaqların içində
Ucadır mənim başım.
Anamın gözlərindən
Qar üstə od yağsa da,
Alnından vüqar yağır.
Qəbristana qar yağır,
Qar necə hamar yağır.

1993

## AFAQIN ARZUSU

Mən dağlarda dil açmışam,
Qaya bülbülləri kimi.
Bir ağ sevincə dönmüşəm,
Həmərsin gülləri kimi.

Çinar boyumu boylamış,
Çeşmə qanımda qaynamış.
Saçımda külək oynamış,
Söyüdün telləri kimi.

Od püskürə Laçın dağı,
Qarala düşmən ocağı.
Gələ xoş zəfər sorağı,
İlk bahar yelləri kimi.

Son qoyula bu savaşa,
Can verək torpağa-daşa.
Sevincimiz aşıb-daşa,
Həkəri selləri kimi.

Bir şadlıq təbli vurula,
Yaylaqda çadır qurula.
Ağlamış gözlər durula
Qoçnohur gölləri kimi.

Ellər istəyinə çata,
Qoç Nəbi arxayın yata.
Kaş ki, əlim tüfəng tuta
Həcərin əlləri kimi.

20 may, 1993

## DƏDƏ SAZ

Ay uşaqlar, Dədə sazın,
Hər teldə min ahəngi var.
Onda Koroğlu nərəsi,
Onda «Kərəmi», «Cəngi» var.

Çoxdur ulu sirdaşları,
Nəğmə-nəğmə daş-qaşları.
Bir havanın göz yaşları,
Birinin top-tüfəngi var.

Gah gurlayır şimşək kimi,
Gah da çarpır ürək kimi.
Açılan gül-çiçək kimi,
Hər nəğmənin öz rəngi var.

Hər buludun öz yağışı,
Gül bitirər yaz yağışı.
Qoy kükrəsin saz yağışı,
Şıdrığı var, çiləngi var.

Sazdan ilham alanların,
Öz qəlbi tək çalanların.
Saza ustad olanların
Başında nur çələngi var.

## BAYRAMIN MÜBARƏK, ANA

Mart ayı yaxana bənövşə taxır,
Günəş məhəbbətlə hüsnünə baxır.
Sənə nəğmə deyib çeşmələr axır,
Gözəl yox dünyada sənin tək, ana,
Bayramın mübarək, mübarək ana.

Qatara düzülür durnalar bu gün,
Bəzənir-düzənir sonalar bu gün.
Güllərə qərq olur analar bu gün,
Sarılım boynuna, a göyçək ana,
Bayramın mübarək, mübarək ana.

Gözəl yurdumuzla adın qoşadır,
Analar sevgisi bizi yaşadır.
Bu gün bütün dünya bir tamaşadır,
Ürəksən dünyaya sən, ürək, ana,
Bayramın mübarək, mübarək ana.

8 mart, 2002

# DAŞQININ DİLİNDƏN ŞERLƏR

## Əlifba

Əlifbadır səslərin, hərflərin anası,
Otuz iki balanın hər dərdinə yanası.
Əlifbanı bilməsək qapısı bağlı qalar,
Açılmaz üzümüzə söz mülkü, söz dünyası.

## Müəllim

Biz çeşməyik, müəllim bir dərin çay,
Biz ulduzuq, müəllim bədr olmuş ay.
Kitab-kitab oxuyarıq dünyanı,
O verdikcə işığından bizə pay.

## Vətən

İsti bir ocaqsan, çörəksən, Vətən,
Sinəmdə döyünən ürəksən, Vətən!
Ata vüqarı tək əyilməz qaya,
Ana qəlbi kimi çiçəksən, Vətən!

20 dekabr, 1991

# BİRİNCİLƏRİN ON BİRİNCİLƏRİ TƏBRİKİ

Mübarəkdir sizin bu son zənginiz,
Qızılgültək qoy açılsın rənginiz.
Biliyiniz, hünəriniz olacaq,
Başınızda səadət çələnginiz.

Çıxdıq birinci qatdan artıq ikinci qata,
Gəldik sizə gül verək, hazır olun həyata!
Çəkin hər qayğısını əziz ana Vətənin,
Günəş kimi nur saçın siz də bu kainata.

Qoy bu çiçəklər olsun sizə mükafatımız,
Qanlı qara xəbərdən qurtulsun həyatımız.
Örnəkçimiz siz olun, biz də baxıb öyrənək,
Bu həyat yollarında büdrəməsin atımız.

Son zəngin sədasında vüsal da, hicran da var,
Ayrılıq saatında xoş bir həyəcan da var.
Biz Koroğlu yurdunun igid balalarıyıq,
Vətən eşqi əzəldən ürəkdə var, qanda var.

Heç unutmaq olarmı əziz müəllimləri,
Çəkmişdir qayğınızı uzun illərdən bəri.
Siz elmin dəryasında üzgüçülərtək üzün,
Dərinlərə baş vurun, tapın dürrü, gövhəri.

Qurtarsın bu qan-qada, vətən bir cənnət olsun,
Gələn il bu vaxt bizə qələbə qismət olsun.
Üçrəngli bayrağımız dalğalansın vüqarla,
Bayram süfrələrində hər cürə nemət olsun.

Məktəbimiz müqəddəs, doğma ana qucağı,
İsitmiş qəlbimizi onun odu-ocağı.
Ağ üzlə qarşılayaq sizintək biz də bir vaxt,
Son zəngin sədaları ucalan xoşbəxt çağı.

# OTUZ İKİ QARDAŞ

## Əlifba

Otuz iki yoldaşıq biz,
Yoldaş nədir, qardaşıq biz.
Qədirbilən sərraf olsa,
Ən bahalı daş-qaşıq biz.

### A

Azərbaycan, əziz ana,
Bəxş etdin bizi cahana.
Canından da şirin olar,
Öz vətəni hər insana.

### B

Babəkəm mən, qoç Babəkəm,
Bəlkə də tarixdə təkəm.
Bir də gəldim dünyaya ki,
Düşmənlərə dağlar çəkəm.

### V

Vaqifin dustaq məzarı
Arzular qaçaq Eldarı.
Türbəsi yaralı şair,
Çağırır mərd oğulları.

### Q

Qəhrəman Qarabağlıyam,
Mən bu diyara bağlıyam.
Bir əlimlə atəş açam,
Biriynən yara bağlayam.

**Ğ**

Bilik həyat yarağıdır,
Xoş günlərin sorağıdır.
Müəllimin hər bir sözü
Ağlımızın çırağıdır.

**D**

Dəlidağam – dağlar dağı,
Yurdumuzun ağlar dağı.
Kəlbəcər azad olmasa,
Ağlar daşı, ağlar dağı.

**E**

El dəryadır, biz qətrəsi,
Yenilməzdir elin səsi.
El düşmənə zəfər çalar,
Zəhərlidir yad nəfəsi.

**Ə**

Əzizdir yurdumun adı,
Xoşdur nemətimin dadı.
Əyilməzlər övladıyıq,
Əyilməz vətən övladı.

**J**

Jaləyəm, güldə jalə mən,
Kaş olaydım şəlalə mən.
Gün düşəndə yox oluram,
Dönürəm bir xəyala mən.

## Z

Zərdüştün yanar səsiyəm,
Bu yurdun od nəfəsiyəm.
Babam yazmış «Avesta»nı,
Görün kimin nəfəsiyəm!

## İ

İgid yaşına dolarıq,
Qəhrəman əsgər olarıq.
İldırımdır nifrətimiz,
Yad bağrına od salarıq!

## I

Bizik diləklər nübarı,
Ömürlərin şirin barı.
Qəlbimiz də, gözümüz də
Sudan duru, aydan arı.

## Y

Yağış keçə, ayaz gələ,
Çaylara xoş avaz gələ.
Yaz gəlincə qalib gələk,
Yaz üstünə bir yaz gələ.

## K

Kəkliyəm, daşdan uçaram,
Gədikdən, qaşdan uçaram.
Güllə səsi qoymur yatam,
Qalxıb obaşdan uçaram.

**G**

Göygöl mənəm — dağ aynası,
Kəpəzin parlaq aynası.
Ala gözlü maralların
Dağlarla ortaq aynası.

**L**

Laçınımın nə oğlu var,
İgid qızı, ər oğlu var.
Dustaq olmaz yad əlində,
Hər dağda yüz Koroğlu var!

**M**

Milim, Muğanım var mənim,
Arazda qanım var mənim.
Mil çəkərəm xain gözə,
Cənnət məkanım var mənim!

**N**

Nəbiyəm mən, Qaçaq Nəbi,
Bir qoç oğlu qoçaq Nəbi.
Düşmənlərin gözlərini
Oyub tökən bıçaq Nəbi!

**O**

Oxumaq bizə yaraşır,
Dilimiz sözə yaraşır.
Sətirlərin şəfəqləri
Oxuyan gözə yaraşır.

**Ö**

Öyünməli gün gələcək,
Düşmən qan qusub öləcək.
Şəhidlərin məzarı da
Onda gül açıb gülələcək.

**P**

Payız mənəm, varlı payız,
Bağ-bağatı barlı payız.
Düzənlərdə göy çəmənli,
Zirvələrdə qarlı payız.

**R**

Rəngi — göy, yaşıl, qırmızı,
Yada salır soyumuzu.
Müqəddəsdir bayrağımız,
Azadlığın dan ulduzu.

**S**

Süsən də, sünbül də mənəm,
Saralmayan gül də mənəm.
Bir nəğməyəm şirin-şəkər,
Ürəkdə mən, dildə mənəm.

**T**

Tərtərəm, boyandım qana,
Çağlayıram yana-yana.
Durularam zəfər günü,
Dürr səpərəm dörd bir yana.

**U**

Ulaşır murdar yağılar,
Səsi dağ-daşı ağılar.
Yurd-yuva dağıdanların
Axır öz yurdu dağılar.

**Ü**

Ürək sinəmizdə coşar,
Şəhidlərə şeir qoşar.
Vətənimiz qalib gələr,
Sevincimiz aşıb-daşar.

**F**

Fitnəkar dillər qurusun,
Gözlərdə sellər qurusun.
Bu dünyanı fırfıratək
Fırladan əllər qurusun!

**X**

Xeyir xəbər gətirərəm,
Uşaqlara yetirərəm.
Qar çiçəyi bitirərəm,
Novruzgülü bitirərəm.

**H**

Hay salma ki, Həcər hanı,
Mən burdayam, yaxşı tanı!
Aynalıdan ayrılmaram,
Sel olmasa düşmən qanı.

## Ç

Çinaram mən də, xan çinar,
Buludlara qalxan çinar.
Günəşin ilk şəfəqləri
Budağından axan çinar.

## C

«Can» deyir anamız bizə,
Elə bil bal qatır sözə.
Biz bulağa bənzəyirik,
Anamız mavi dənizə.

## Ş

Şam almışam — Novruz şamı,
Tez gələr yaz ehtişamı.
Şəhidlərin şərəfinə
Şam yandır bahar axşamı!

## Əlifba

Otuz iki yoldaşıq biz,
Yoldaş nədir, qardaşıq biz.
Qədirbilən sərraf olsa,
Ən bahalı daş-qaşıq biz.

# ANAM

Ən qüdrətli əl,
Ən şəfqətli əl
Anamın əlidir
Əllər içində.

Ən narın ipək,
Ən zərif çiçək.
Anamın telidir
          Tellər içində.

Ən şirincə dil,
Gözəl, incə dil.
Anamın dilidir,
          Dillər içində.

## XOCALI

Yağılar yandırdı səni,
Can Xocalı, can Xocalı!
Qışın bəyaz köynəyini
Boyadı al qan, Xocalı,
Can Xocalı, can Xocalı!

Yerdə qalmaz qızıl qanın,
Gələr intiqam zamanın.
Çoxdur şəhid qəhrəmanın,
Adına qurban Xocalı,
Can Xocalı, can Xocalı!

## ŞƏHİDLƏR

Yurdumuza yaraşıq
Vüqarı dağ şəhidlər.
Qara torpaq altında
Ey üzü ağ şəhidlər!

Yanan ürəyinizlə,
Min bir diləyinizlə.

Qanlı köynəyinizlə
Uca bayraq şəhidlər!

Əsrin qara qışında,
Güllələr yağışında.
Qurban getsəniz də siz,
Vətənin yaddaşında
Həmişə sağ şəhidlər.

## MÜƏLLİM GÜNÜ

Payız gülü dərə-dərə,
Dostlar yığışın bir yerə.
Bizə elm öyrədənlərə
Məhəbbət günüdür bu gün,
Məhəbbət günüdür bu gün.

Nəsil-nəsil biz gəlirik,
İdrak ilə yüksəlirik.
Müəllim qədrin bilirik,
Xoş ülfət günüdür bu gün,
Məhəbbət günüdür bu gün.

Məktəb günəş, məktəb ana,
Nur saçır bütün cahana.
İşığı daim gur yana,
Bir şəfqət günüdür bu gün,
Məhəbbət günüdür bu gün.

Qəlbimiz arzuyla dolu,
Gedirik açdığı yolu.
Müəllim müqəddəs, ulu,
Ülviyyət günüdür bu gün.
Bizə elm öyrədənlərə,
Məhəbbət günüdür bu gün.

## RƏNA MÜƏLLİMƏYƏ

Dünya bir qıfıllı sandığa bənzər,
Verin açarını bizə, müəllim!
Ağıl gözü gərək kökünü görə
Hər nə görünürsə gözə, müəllim.

Biz seçə bilmirik yaxşı-yamanı,
İnsan idrakının sahili hanı?!
Bizə açmaq üçün hər müəmmanı
Şəkər qatırsınız sözə, müəllim.

Zirvə yox dünyada elmdən uca,
Tarix də güvənir elmə, qılınca.
Nə qədər tilsimin, sirrin dalınca
Bizi salırsınız izə, müəllim.

Elmə çağırırsız ürəklə, canla,
Sizi şad eylərik hər imtahanla.
Ömür nərdivandır, bu nərdivanla
Qalxıb çıxasınız yüzə, müəllim.

Rəna gülüsünüz, adınız əziz,
Sizi gül-çiçəklə qarşılarıq biz.
Biz kiçik damlayıq, siz dərin dəniz,
Bir zaman bənzərik sizə, müəllim.

25.09.1996

## YOLDAN ÖTƏRKƏN

Ceyran qızım, o görünən duman deyil, qar deyil,
Nizaminin çalmasıdır Kəpəz dağın başında.
O nur saçan günəş deyil, közərmiş bir şar deyil,
Odlu şair ürəyidir üfüqlərin qaşında.

— O yüksələn qartalmıdır? Zirvələrdən qəlbidir…
— Yox, şairin xəyalıdır, ağ buludun tuşunda.
O sayrıyan Gəncə deyil, Nizaminin qəlbidir,
Abad olmuş bir şəhərdir ana yurdun döşündə.
Bu dərdiyin çiçək deyil, Nizaminin sözüdür,
Çiçək olub yurdumuzun torpağında-daşında.

## SƏRHƏD

Niyə yuxusu gəlmir,
Qoymur atası yata?
Elnarə sual verir:
— Sərhəd nədir, ay ata?
— Sərhəd elə çaydır ki,
Alovdandır suları,
Bu sudan içmək olmaz.
Sərhəd elə çaydır ki,
Tükdəndir körpüləri,
Üstündən keçmək olmaz.
Sərhəd elə dağdır ki,
Buz dondurur adamı,
Bu dağdan aşmaq olmaz,
Aşsam görməzsən məni.
Mən də heç vaxt görmərəm
Nə səni, nə Vətəni.
Boylandı qorxa-qorxa,
Baxdı qapıya sarı.
Atasının boynundan
Açılmadı sübhədək
Elnarənin qolları.

## ATALAR

*(Nəvəm Şaiqin dilindən)*

Allahın kölgəsidir öz halal ocağında,
Həm şirin candır bizə, həm cahandır atalar.
Analar yer üzüdür — isti beşiyimizdir,
Ulduzlu, aylı-günlü asimandır atalar.

Adını uca tutmaq şöhrətdir, şandır bizə,
Pərvaza yetişincə qoldur-qanaddır bizə.
Uludur gözümüzdə, daim ustaddır bizə,
Çarpan ürəyimizdə qızıl qandır atalar.

Ataların əliylə ucalmış vətənimiz,
Odur dara düşəndə imdada yetənimiz.
Hayıf ki, çoxdur hələ daldadan ötənimiz,
Hansı dərdimiz olsa ilk dərmandır atalar.

Mənim ata diyarım gözəl Laçındır, Laçın,
Qolları zəncirdədir, gedin, çarpışın, açın!
Dağı sinəmizdədir o qanlı qaçhaqaçın,
Bir yaman aldanışla peşimandır atalar.

Atadan öyrənirik ata qədri bilməyi,
Ana kövrələn zaman göz yaşını silməyi.
Bütün qohum-qardaşın köməyinə gəlməyi.
Əzizdir, istəklikdir, mehribandır atalar.

Mübarəkdir, ay ata, mübarəkdir qıx yaşın,
İşıqlı dağımız tək daim ucalsın başın.
İgid olub hər zaman nəslin, qohum-qardaşın,
Çox yağılar batırmış bir ümmandır atalar,
Mən də qəhrəman ollam, qəhrəmandır atalar.

14 dekabr, 1998

## YARALI YATIR HƏCƏR

*(Həsən babanın dediklərindən)*

Yeddi gündür kahada
Yaralı yatır Həcər.
Yeddi gündür döyüşdən
Aralı yatır Həcər.
Qaçaqlar dara düşüb,
Dəstə mühasirədə.
Su yerinə qan axır
Bu sıldırım dərədə.
Bürüyüb dörd tərəfi
Qalın düşmən qoşunu.
Yaralayıb güllələr
Dağın hər qayasını,
Ağacını, daşını.
Gülləyə hədəf olub
Ağaclarda yuvalar.
Barıt qoxuyur yenə
Yaz günündə havalar.
Qoç Nəbi nərə çəkir,
Düşmənə vermir aman.
Bulaqları, çayları
Boyamışdır qızıl qan.
Yapıncının üstündə
Yaralı yatır Həcər.
Yeddi gündür döyüşdən
Aralı yatır Həcər.
Keçən gecə döyüşdə
Həlak oldu kəhəri.
Başının altındadır
Qana batmış yəhəri.
Atın son kişnərtisi
Titrətdi dağı-daşı.
At – qaçağın qardaşı,
At – igidin yoldaşı.

Qaçaqların yanında
Qalmışdır yarı canı.
Göynəyir yaraları,
Hanı qoç Nəbi, hanı?!
Yəhərdən yıxılanda
Həcər al qan içində,
Nəbi öz köynəyini
Cırdı bir an içində,
Sarıdı yarasını.
Gizlətdi bu kahada
Bağrının parasını.
Yapıncının üstündə
Yaralı yatır Həcər.
Öz igid Nəbisindən
Aralı yatır Həcər.
Kahanın bacasından
Hərdən boylanır göyə.
Qartallar lələk salır,
Üzünü yellə deyə.
Kahanın qapısında
Mələyir ana maral,
- Gəl südümü sağ, - deyir,
Doyunca iç, qüvvə al!
Yaralı qəhrəmana
Keşik çəkir bəbirlər.
Qaranquşlar gətirir
Döyüşdən təzə xəbər.
Qaçaqlar od yağdırır
Düşmənlərin başına.
Aynalı qəh-qəh çəkir
Sınıq düşən qoşuna.
Yeddi gündür döyüşdən
Aralı yatır Həcər.
Gözləyir qoç Nəbini,
Yapıncının üstündə
Yaralı yatır Həcər.

## KƏND MUZEYİNDƏ

Babaların tüfəngi,
Papağı var muzeydə,
Döyüşdə yaralanmış,
Güllədən paralanmış,
Bayrağı var muzeydə.

Torpaq od tutub yanmış,
Vətən dözmüş, dayanmış.
Bir əsgər məktubunun
Üstündə qanı donmuş
Varağı var muzeydə.

Dəyişib neçə dövran,
Dolanıb, dönüb zaman.
Nənələrin saxsıdan,
Bir də paslı dəmirdən
Çırağı var muzeydə.

Bu kotandır, bu da xış,
Bir vaxt şöhrəti varmış.
Yerin bağrını yarmış,
İndi də mürgü vurub,
Yatmağı var muzeydə.

Küplər quyudan dərin,
Suyu saxlarmış sərin.
Ağ saçlı əsrlərin
Qanlı döyüşlər görən
Yarağı var muzeydə.

Körük ilə yanaşı,
Qədim dəyirman daşı.
Bilinmir onun yaşı,
Təknəsi, çaxçaxı var,
Çanağı var muzeydə.

Şana, kürək, bel, dəhrə,
Şam ağacından nehrə,
Bu da ki, köhnə cəhrə…
Dişində əlçim qalmış
Darağı var muzeydə.

Qıratların yəhəri,
İgidlərin xəncəri.
Anaların kəməri,
Bir də ki, gözmuncuğu,
Qolbağı var muzeydə.

Qarılar gərdək verib,
Qapqara örpək verib,
Qartal da lələk verib,
Maralların buynuzu,
Dırnağı var muzeydə.

Neçə aşığın sazı,
Neçə şairin sözü,
Neçə igidin izi,
Sorağı var muzeydə.
Babaların tüfəngi,
Papağı var muzeydə.

# AYTƏNƏ
# ŞEİR YAZIRAM

## AYTƏN VƏ GÖYƏRÇİN

Göyərçin, ay göyərçin,
Gəl qon bizim eyvana.
Babama məktub yazım,
Aparıb çatdır ona.
Təzə bir şer yazsın,
Onu da gətir mənə.
Səni qonaq eylərəm,
Çoxlu çörəyə, dənə.
Gəl bizim evdə isin,
Sağ ol söylə Aytənə.

14 yanvar, 1998

## BABAMA
## KONFET VERMİŞƏM

*Aytənin dilindən*

Babama konfet vermişəm,
Ona da bir şer yaza.
Deməsin qoca kişiyəm,
Özünü qoymasın naza.
Babam şer yazan günü
Naxışlı donumu geyim.
Nənəşim də tort bişirsin,
Şeri deyim,
Tortu yeyim.

13 yanvar, 1999

## AYTƏN KƏNDƏ GEDİR

Kəndə aparır baba iki yaşlı Aytəni,
Görsün çayı-çeşməni, görsün çölü-çəməni.

Bakıdan çıxmamışdı Aytən indiyə kimi,
Dinləyirdi, öpürdü nağıl deyən nənəni.

Maşın pəncərəsindən göy zəmini görəndə,
Aytən qışqırdı birdən: ay səməni, səməni!

Yapışsın babaların, nənələrin əlindən,
Uşaqlar gəzsin gərək, görsün nağıl vətəni,
Kəndə aparır baba iki yaşlı Aytəni.

14 aprel, 1996

## KİTABIM, DƏFTƏRİM VAR

Kitabım, dəftərim var,
Əlifbanı bilirəm.
Bacımın məktəbinə
Hər gün mən də gedirəm.
Şer dedim «beş» yazdı
Müəllimə gülərək.
Dedi: ay qəşəng bala,
Bu «beş»lərin mübarək.
Özün də beş yaşdasan,
Beş yaşda bir ağ çiçək.
Gələn il məktəbə gəl,
Əlaçı ol bacın tək.
Öz şair babanı da
Sevindirəsən gərək.

19 aprel, 1999

## KUKLAMA SOYUQ DƏYƏR

Pəncərəni ört baba,
Kuklama soyuq dəyər.
Xalatlı həkim xala
Gəlib mənə nə deyər?
Deyər saxlaya bilmir,
Balaca bir körpəni.
Mən də deyərəm: həkim,
Babamdır tez-tez açan
Qapını, pəncərəni.

28 fevral, 1999

## UÇ BABAMIN YANINA

Telyığanın üstündə
Alnımdasan uçağan.
Ay xalları qapqara,
Köynəyi qan uçağan.
Tez ol qanad aç görüm,
Nənəmgilə uç görüm.
Get babamın yanına,
Uçub qon papağına.
Ay saçları qar baba,
Ay qoca çinar baba.
Çinarədən, Aytəndən
Sənə salam var, baba.

28 fevral, 1999

## MƏNƏ DƏ YAZMAQ ÖYRƏT

Gözəl bacım Çinarə,
Evimizin çırağı.
Mənə də yazmaq öyrət,
Al qələmi, varağı.

Öyrət müəllim təki,
Babama kağız yazım.
Nənəm baxıb gülməsin,
Hər bir sözü düz yazım.

Aytənə yazmaq öyrət,
Yaxşı bacı, yaxşı qız,
Al bu qələm, bu kağız.

## BABAMIN YAŞI

*Aytənin dilindən*

Bir 6 bir də 5 — babamın yaşı,
Uca dağlar kimi ağarır başı.
Fəridə nənəmlə yüz yaşında da,
Qoşa çinar kimi dursun yanaşı,
Bir 6 bir də 5 — babamın yaşı.

Laçın azad olsun, gedək dağlara,
Qarışsın səsimiz gur bulaqlara.
Bir də ah çəkməsin ötən çağlara,
Bir də düyülməsin o qalın qaşı,
Bir 6 bir də 5 — babamın yaşı.

Yansın kəndimizdə bayram tonqalı,
Toy-büsat bürüsün eli, mahalı.

Orda cavanlaşıb durulsun halı,
Qucaqlasın, öpsün torpağı, daşı,
Bir 6 bir də 5 — babamın yaşı.

1999

## LAÇIN HARADIR, BABA

Laçın, Laçın deyirsən,
Laçın haradır, baba?
Niyə Laçın deyəndə
Qanın qaradır, baba?
Laçın haradır, baba?

Oradır bulağı buz,
Üstündə yox gəlin-qız.
Nənəm deyir Laçınsız
Bağrın yaradır, baba,
Laçın haradır, baba?

Yazdın bayatı, ağı,
Erməni bizə yağı.
Kim böldü bu torpağı,
Niyə paradır, baba?
Laçın haradır, baba?

29 aprel, 1999

## QAR

— Ay baba, eyvana bax,
Yağdı qar, yağdı qar.
Sənin saçların kimi,
Ağdı qar, ağdı qar.

— Baxıram Aytən balam,
Üç günlük qonaqdı qar.
Gün çıxsa görəcəksən,
Suya dönüb axdı qar.

## ATAMI GÖZLƏYİRƏM

Atam səhərdən gedir,
İşləyir gün batınca.
Hər axşam darıxıram
Gəlib evə yatınca.
Gec gələndə yatmıram,
Gözləyirəm atamı
Televizor yatınca.

## QOLBAĞIMDA KƏPƏNƏK

Qolbağımın üstündə
Yamyaşıl bir kəpənək.
Elə bil göy çəməndə
Açıb təzə bir çiçək.
Qolbağım par-par yanır,
Nənəm baxır, xoşlanır.
Deyir: — Aytən, atanın
Hədiyyəsi mübarək!

17.03.1999

## NƏNƏMİN AD GÜNÜDÜR

Nənəmin ad günüdür,
Xoş günü, şad günüdür.
Mən də gül gətirmişəm.
Üç dənə qıpqırmızı

Qərənfil gətirmişəm.
Babam da şer yazır,
Sözü düzür varağa.
Baxıram ağ saçına,
Bənzəyir qarlı dağa.
Qərənfili qoxladı,
Şeri oxudu, güldü.
Nənəm kövrəldi nədən,
Gözündən yaşı sildi.
Babam tütəyi aldı,
Oyun havası çaldı.
Oynadıq nənəmlə mən,
Qonaqlar gələnəcən.
Nənəmin ad günüdür,
Xoş günü, şad günüdür.

12.02.1999

## GÖZLƏRİ DƏ GÖY OLSUN

Nasir əmi toy eləsin, oynayaq,
Gecikməsin, o da təzə bəy olsun.
Gözəl-göyçək bir qız tapsın özünə,
Kuklam kimi gözləri də göy olsun,
Nənəm desin: a gözləri göy gəlin,
Səninkidir bu evdə hər şey, gəlin!

12.02.1999

## KUKLAMA AD QOYMUŞAM

Kuklama ad qoymuşam —
Öz nənəmin adını.
Bilmir hələ konfetin,
Dondurmanın dadını.

Çay versəm içə bilmir,
Süd versəm içə bilmir.
Ancaq gülür gözləri,
Ağzını aça bilmir.
Fəridə, ay Fəridə,
Bir ağzını aç görüm,
Anam bazardan gəlib
Sənə mandarin verim.
Sən mənim bir dənəmsən,
Öz balaca nənəmsən!

6.02.1999

## NƏNƏSİ QURBAN OLSUN

Körpə quzudur Aytən,
Böyüsün ceyran olsun.
Babası şeir yazsın,
Nənəsi qurban olsun.

## AYTƏNİN ALMASI

Aytən balam bir ərköyün quzudur,
Nənəsinin şirin-şəkər qızıdır.
Babasına pay göndərib bir alma,
Alma deyil, sanki dan ulduzudur.

***

Aytən mənə pay verib: bir ağ alma,
Bir almanı sanıram bir bağ alma.
Nəvə payı dərman olar, Kürdoğlu,
Bununla da sağalmasan, sağalma.

13 noyabr, 1998

## NƏNƏMƏ MUNCUQ ALDIM

Nənəmə muncuq aldım,
Öpdüm boynuna saldım.
Gör nə yaraşıqlıdır,
Ulduzdan işıqlıdır.
Saydım düz altmış dənə.
Altı yaşında mənəm,
Altmış yaşında nənəm.
Nənəm qəşəng, mən qəşəng,
Ad günümüz mübarək.

## ŞAHNABAT MÜƏLLİMƏ

*Çinarənin və Aytənin dilindən*

Şahnabat müəllimə
Anamız tək əzizdir.
Biz onun dalğasıyıq,
O bir mavi dənizdir.
Günəş doğur qəlbindən,
Üstümüzə nur saçır.
O bizə elm öyrədir,
Bağlı qapılar açır.

## AYTƏNİN ÇANTASI

Aytənin ağ çantası var,
Nə gözəldir nənə payı.
Yada salır səhər-səhər,
Göy üzündə gümüş ayı.

İçində pul, sırğa, üzük,
Bir də ki, muncuq — rəngbərəng.

Aytənimin həm çantası,
Həm də özü gözəl, qəşəng.

Bəzənib toylara gedər,
Harda var Aytənin tayı.
Əlində də ağ çantası,
Nə gözəldir nənə payı.

10 iyun, 2000

## BABANIN AD GÜNÜNDƏ

Aytən Çinarəylə qoşa,
Babanın yaşına gəlir.
Babasına şeir demək,
Aytənin xoşuna gəlir.

Bülbüllər də heyran olar,
Bu qız nə çox şeir bilir.
Dinlədikcə babasının
Üzü gülür, gözü gülür.

Baxır bu qoşa ulduza,
Sinəsinə sığmır ürək.
Nəvələri şeir deyir,
Baba qocalmasın gərək.

10 iyun, 2000

## AYTƏNİN ARZUSU

Dağlardan ucadır babam,
Dağlar özünü öyməsin.
Ağacları əysin külək,
Babamın belin əyməsin.

Bir az bənizi solsa da,
Hərdən gözləri dolsa da,
Saçı ağ bulud olsa da,
Qoca paltarı geyməsin.

Yaxşı bal alsın özünə,
Yesin, nur gəlsin gözünə.
Gül kimi gülsün üzünə,
Nənəm qaşını düyməsin.

Çıxsın çoxlu kitabları,
Şeiridir evinin varı.
Dünyanın azar-bezarı
Hüseyn babama dəyməsin!

9.10.1999.

## DÖRDLÜK

Bir bülbüləm, saralmaz gülşənim var,
Haqq quşuyam, sözdən qızıl dənim var.
Nəvələrim əzbər deyir şerimi,
Xoşbəxtəm ki, Çinarəm, Aytənim var.

10.10.1999

## KİMİ ÇOX İSTƏYİRSƏN?

*(Aytən balamın ad gününə)*

Dil açıb dil-dil ötən,
Mənim gül balam Aytən.
Bir gəl qucuma görüm,
Kimi çox istəyirsən?
— Babanı!

Bax bu ata, bu ana,
Dayanıblar yan-yana.
Bu mən, bu bacın Çina,
Kimi çox istəyirsən?
— Babanı!

Kimi çağırım gəlsin,
Burda yatıb dincəlsin.
Mindirsin öz boynuna
Səni güldürsün, gülsün?
— Babanı!

Kimin bağına girdin,
Sapsarı çiçək dərdin?
Niyə durub ağladın,
Kimi yuxuda gördün?
— Babanı!

Bir dənəsən, bir dənə,
Boyuna qurban nənə.
Təzə don aldım sənə,
Kimi çox istəyirsən?
— Babanı!

Aytən balam incidir,
Bu evin sevincidir.
Hey danışır, deyinir,
Nənə kimi incidir?
— Babanı!

## MƏKTƏBƏ GEDİR AYTƏN

Zənglər səslənir bu gün,
Oyanır hamı tezdən.
Bayramdır, ya toy-düyün,

Nə xoşbəxt babayam mən,
Məktəbə gedir Aytən.

Çantası nə qəşəngdir,
Köynəyi lalərəngdir.
Özü bir ağ çiçəkdir,
Azalır saçımda dən,
Məktəbə gedir Aytən.

Bir baxın dörd bir yana,
Arı yığılır şana.
Yanında ata, ana,
Gün ilə, ay ilə tən,
Məktəbə gedir Aytən.

Tay-tuşları özüylə,
Yerisinlər düzüylə.
Ana məktəb gözüylə
Baxır sabaha Vətən,
Məktəbə gedir Aytən.

1 sentyabr, 2001

## AYTƏNƏ
## ŞEİR YAZIRAM

Götürüb dəftər-qələmi,
Unudub hər dərdi, qəmi.
Dən axtaran bir quş təki,
Xəyalım gəzir aləmi,
Aytənə şeir yazıram.

Amandır, məndən küsməsin,
Aramızdan yel əsməsin.
Dözərmi bu dərdə baba,

Qoy bizdən ayaq kəsməsin,
Aytənə şeir yazıram.

Qurbanam şirin dilinə,
Adımı yazan əlinə.
Kövrək balam, incə balam,
Bənzəyir çiçək telinə,
Aytənə şeir yazıram.

Üzünü çevirsə yana,
Qara bağrım dönər qana.
Bilməyib dəydim xətrinə,
Bu dərd ilə yana-yana,
Aytənə şeir yazıram.

Sal qayadan bir adayam,
Tufanlı bir dəryadayam.
Hələ ki, qələm tuturam,
Hələ ki, bu dünyadayam,
Aytənə şeir yazıram.

# UÇAĞANIM,
# UÇ GÖRÜM…

## TEZ GET, QATAR

Yol çəkir babamın gözü,
Tez get qatar, tez get, qatar!
Məndəndir söhbəti-sözü,
Tez get qatar, tez get, qatar!

Bağçasında heyva dəyib,
Almalar budağın əyib.
Telefon şad xəbər deyib,
Tez get qatar, tez get, qatar!

Bir sazı, bir göy atı var,
Dilində min bayatı var.
Zənbilimdə sovqatı var,
Tez get qatar, tez get, qatar!

Sazını kökləyib gözlər,
Göy atın yəhərin sazlar.
Geciksəm ürəyi sızlar,
Tez get qatar, tez get, qatar!

## LEYLƏYİM

Leyləyim, ay leyləyim,
Bir düş qovaq başından.
Uca budaq başından,
Səni qonaq eyləyim.
Dən səpim, ye doyunca,
Kökəlib ol qoyunca.
Qorxma çilli xoruzdan,
Ağ kəkilli xoruzdan.
Qorxma xallı Bənəkdən,
Ağ qoçdan, boz inəkdən.
Dimdiyini şaqqıldat,

Çıxıb öz yuvanda yat.
Uçub getmə uzağa,
Leyləyim, ay leyləyim,
Getsən, sənsiz neyləyim?!

## KÜLƏYİ DƏ BAĞLA

İnəyi bağladın sən,
Bənəyi bağladın sən.
Göy atı çidarladın,
Telini tumarladın.
Qoyunu yığ ağıla,
Qoyma hürküb dağıla.
Küləyi də tut, bağla,
Ay ata!
Axı bu külək qoymur
Adam doyunca yata!

## KÖKƏ MƏNİ

Üstümə palçıq tulladın,
Gör saldın nə kökə məni?!

Küsdüm səndən, barışdırmaz,
Nə konfet, nə kökə məni.

Çağırmışdın kök qazmağa,
Di gəl, apar kökə məni!

Bir də heç kim dost bilməsin,
Sənin kimi bir tənbələ,
Bir gonbula, kökə məni.

## TUTA-TUTA

Çıxdım tut ağacına
Budaqdan tuta-tuta.
Duman da göyə çıxır,
Bu dağdan tuta-tuta.
Anam dedi: - ay bala,
Budaqdan tut ha, tut ha!
Çoxlu-çoxlu tut çırpım,
Qonaq gəlsin çobanlar
Bu dağdan tuta, tuta!

## MƏNİM YEDDİ YAŞIM VAR

Mənim yeddi yaşım var,
Rəngli karandaşım var.
Əsgər şəkli çəkirəm,
Cəbhədə qardaşım var.

Mənim yeddi yaşım var,
Dostum var, yoldaşım var.
Özüm məktub yazıram,
Cəbhədə qardaşım var.

## ANAR

Bağçaya girdi Anar,
Dərdi bir gülöyşə nar.
Çağırdı Alabaşı,
Tulladı itə narı.
Baxdı, incidi, hürdü,
Danladı it Anarı.

Çağırdım güllü bağa,
O şirindil Anarı.
Od rəngində gül aça,
Bu bağın gülə narı.
Tikan sancıb əlinə,
Ağlatdı gül Anarı.

## TÜLKÜ LƏLƏ

Şonquyub nə baxırsan,
Sən ki, tülkü lələsən.
Görən kimi tanıdım,
Quyruğu bir şələsən.

Gəzirsən dağı, düzü,
İmsiyirsən hər izi.
Səsin qorxutmur bizi,
Vaqqıldama belə sən.

Sən yaxın gələn kimi,
Çağırram Pələngimi.
Oxumu, tüfəngimi,
Görməmisən hələ sən.

## ÇƏPİŞLƏR

Çəpişlər qaya başında
Toqquşdular, hölləşdilər.
Buynuzlaşıb dalaşdılar,
Uşaq kimi güləşdilər.
Bir-birinə güc gəlməyə
Çalışdılar, əlləşdilər.
Gördüm dayanan deyillər,
Bu dəcəllər, bu veyillər.
Mən keçi kimi mələdim,
Dayandılar, mələşdilər.

## DƏVƏ

Yaşıl-yaşıl tikanları
Şirin-şirin yeyir dəvə.
Tikan batmır dodağına-dilinə.
Tikanları çeynəyəndə,
Elə bil söz deyir dəvə.
Sığırçınlar, sağsağanlar
Hərdən qonur belinə.
Yaşıl düzlər məskənidir,
Oylağıdır dəvənin.
Tikanlı çöl öz evidir,
Yatağıdır dəvənin.
Əzəl gündən bu torpaqda
Dəvələrin izi var.
Şairlərin dəvələrə
Çoxlu-çoxlu sözü var.

## ŞİR

Heyvanlar şahı mənəm,
Tanıyın, ay uşaqlar.
Özüm mahir ovçuyam,
Ovçulara düşmənəm.

Hər yanda ad-sanım var,
Gözlərim yanar çıraq.
Boynumun tükü qalın,
Dişimlə pəncəm yaraq.
Ovçusuyam ceyranın,
Antilopun, maralın.

Qədimdən yurd salmışam
Afrika torpağında.
Görmüsünüz şəklimi

Ordular bayrağında.
İgidlikdə, hünərdə
Əzəldən örnəyəm mən,
İnsana gərəyəm mən.

## ULDUZLAR VƏ KƏPƏNƏKLƏR

— Ay nənə, bəs ulduzlar
Hara gedir gündüzlər?
— Səhər göydən enirlər,
Kəpənəyə dönürlər,
Qonurlar çiçəklərə,
Gözəlləşir dağ-dərə.
Göz qırpır qanadları,
Biri bozdur, biri ağ.
Biri köz kimi parlaq,
Alabəzək, göy, sarı…
Qonaq gələndə kəndə,
Çıxıb çöldə, çəməndə
Hey qovursan onları.

## DƏNİZ

Gömgöy bir quşdur dəniz,
Yerə qonmuşdur dəniz.
Qanadının altında
Hər gün dincəlirik biz.
Hey çırpınır, istəyir
Uçsun ulduza, aya.
Tutub qanadlarından
Buraxmır onu qaya.

## QOĞAL NƏNƏ

Güney bulağıdır gözü nənəmin,
Güləndə ay olur üzü nənəmin.
Var olsun Daşqının Qoğal nənəsi,
Elə bil qoğaldır sözü nənəmin.

15.02.1990

## TAPMACALAR

Şahlar devrilib düşər,
Mən düşmərəm taxtımdan.
Həmişəlik şaham mən,
Razıyam öz baxtımdan.

*(Şir)*

Qızıl köynəyinin xalları ağdır,
Sanki bapbalaca bir oyuncaqdır.
Babadan nəvəyə xəbər yetirir,
Quş deyil, ancaq ki, quşdan qoçaqdır.

*(Parabizən —Allahquşu)*

## TƏK ÖRDƏK

Ay mənim tək ördəyim,
Səsi kövrək ördəyim.
Boynun, başın yamyaşıl,
Qanadın işıl-işıl.
Yastı dimdiyin sarı,
Gedirsən asta-asta.
Bir yoldaşa, bir dosta
Çoxdan həsrət qalmısan,
Gözlərinin yaşından

Sulara iz salmısan.
Ayaqların qızarır,
Su içində közərir.
Hey baş vurursan gölə.
Dimdiyin batır lilə,
Nəsə tapıb yeyirsən,
Səslənib nə deyirsən.
Tay gəzirsən özünə,
Baxan yoxmu sözünə?!
Fikir çəkirsən yaman,
Aman, təklikdən aman!
Qarğı minib çaparam,
Sənə bir dost taparam.
Üzüşərsiz qoşa siz,
Verərsiz baş-başa siz.
Darıxma, tək ördəyim,
Səsi kövrək ördəyim.

## SARI YARPAQ

Ağacdan bir yarpaq uçdu,
Nənəmin saçına düşdü.
Nənəmin saçı ağ çiçək,
Yarpaq da sarı kəpənək.
Yarpağı saçından aldı,
Baxdı, baxdı, fikrə daldı.
Bir bayatı dedi nənəm.
Gözündə qəm, sözündə qəm —
Dağ başına ağ düşdü,
Yaxınlar uzaq düşdü.
Ömrümün budağından
Saralmış yarpaq düşdü.

## QARA QARĞA

Nə qonmusan qar üstünə,
Qara qarğa?
Sən ki, gecə rəngindəsən,
Yamaq olma qara, qarğa!
Acmısansa gəl dən verim,
Başlama qar-qara, qarğa!
Təzə qardan xoşum gəlir,
Qarğama bu qara, qarğa!

## NASİRİN NƏNƏSİ

Apar məni də Laçına,
Çiçək düzərəm saçına,
Ay mənim laçınlı nənəm.

Əynində məxmər kürdüsü,
Sədəfləri düzü-düzü,
Tumanı qırçınlı nənəm.

Nənələrin ən incəsi,
Bağlançası, düyünçəsi,
Mixəkli, darçınlı nənəm.

Saçından gül ətri gəlir,
Dağ ətri, çöl ətri gəlir,
Qırmızı xurcunlu nənəm.

1981

## XƏCCƏ NƏNƏNİN NƏVƏLƏRİ

Bax bu mənim Süsən balam,
Danlayanda küsən balam.
Yeddi rəngli kağızları
Naxış-naxış kəsən balam.

Qayçı yaraşır əlinə,
Toqqa bağlayıb belinə.
Yamanca hirslənir balam,
Gözünə düşən telinə.

Yaş dəsmalı gündə tutur,
Təndir üstə kündə tutur.
Qorxur odundan təndirin,
Kündəsini gendə tutur.

İlham Süsənin qardaşı,
Qapqaradır gözü, qaşı.
Bağçada arx düzəltməyə,
Yaman qarışıbdı başı.

Su döndərir tərəvəzə,
Bağ-bostanı gəzə-gəzə.
Kölgəliyə gəl deyirik
Baxmır bizim sözümüzə.*

## GOPÇULAR

Tural dedi: mən güclüyəm,
Mən yıxaram.
Vüsal dedi: mən güclüyəm,

---

* Şer yarımçıq qalıb

Mən yıxaram.
Vüsal dedi, Tural dedi,
Tural dedi, Vüsal dedi.
Axır durub güləşdilər,
Tutaşdılar, əlləşdilər.
Gah o yıxdı, gah bu yıxdı,
Hərdən Tural qalib çıxdı.
Hərdən Vüsal qalib çıxdı.
Özlərini öyə-öyə.
Evdə heç kəs yoxdur deyə,
Eyvanda da güləşdilər.
Həyətdə də güləşdilər,
Tutaşdılar, əlləşdilər.
Güləşmədən doymadılar,
Ağ köpəyi, göy xoruzu,
Boz pişiyi saymadılar.
Güləşdilər, dalaşdılar,
Arxa batıb islandılar.
Toz-torpağa bulaşdılar,
Nəfəsləri yana-yana
Əldən düşüb yoruldular,
Gülə-gülə barışdılar.
Tural dedi: mən güclüyəm,
Vüsal dedi: mən güclüyəm.
Tural dedi: lap yekə bir ayını da
Mən yıxaram,
Götürüb yerə çaxaram.
Vüsal dedi: mən ayını aşırdaram,
Bu çeçələ barmağımla
Yuvasını uçurdaram.
Tural dedi: mən ayını cilovlaram,
Minib at kimi çaparam.
Gedib uzaq Afrikaya
Aslanı, fili taparam.
Vüsal dedi: mən ayını
Tutaram, çoban eylərəm.

Otarar qoyun-quzunu,
Qanmazı qanan eylərəm.
Tural dedi: yaxşı, yaxşı,
Çox da belə gop eyləmə.
Quyruqlu yalan söyləmə.
Hünərin var bu saatca
Tez ol dur gedək meşəyə.
Çağıraq yastıdabanı,
Yuvadan çıxsın eşiyə.
Görək kim verər payını,
Burar o qıllı boynunu,
Torpağa çırpar ayını.
Vüsal dedi: mən hazıram,
Kimi qorxudursan, qağa.
Mən çoxdan fürsət gəzirəm,
Ayını yerə çırpmağa.

***

Özlərini öyə-öyə,
Döşlərinə döyə-döyə.
Tez çıxdılar darvazadan,
Dallarınca baxa-baxa
Baş buladı xoruz, pişik.
Hürə-hürə qaldı Toplan.
Onlar təpədən aşdılar,
Ağaclığa yanaşdılar.
Ağacların arasından
Qəfil bir qaraltı çıxdı.
Moo-moo deyə-deyə
Boylandı onlara baxdı.
Vüsal qorxusundan əsdi,
Geri qaçmağa tələsdi.
Tural dedi: dayan bir az,
Bəlkə də heç ayı deyil,
Bağırtıdan bilmək olmaz.

Vüsal dedi: nə dayanım,
Görmürsən necə bağırır!
Meşədəki ayılara xəbər verir,
Bizi yeməyə çağırır.
Birdən həmən o qaraltı
Başını tutdu yuxarı.
Yanlarını basa-basa
Yüyürdü onlara sarı.
Dönüb yel kimi qaçdılar,
Elə bil quşa döndülər.
Bir anda qanad açdılar.
Dallarınca moo-moo
Hey yüyürür, yaxınlaşır,
Sudan keçir, dikdən aşır.
Yaxınlaşır, yaxınlaşır!
Dönüb geriyə baxmadan,
Qaçırdı özünü öyən
Bu iki gopçu pəhləvan.
Kəndə yetişdilər daha,
Çatdılar, şükür Allaha.
Doqqazdan girib içəri
Bağladılar darvazanı.
Dallarınca gələn nədir?
Bəs o qıllı ayı hanı?
Darvazanın qabağına
Gəlib çatdı moo-moo – qara balağ —
Camışlarının balası.
Ha, ha, ha, ha… ayıya bax!
Turalın da, Vüsalın da
Üz-gözündən tər töküldü,
Xoruz güldü, pişik güldü.
Toplan güldü.
Bir də gopçu pəhləvanlar
Özlərini öymədilər,
Döşlərinə döymədilər.

1992

## YALANÇI PƏHLƏVAN

Mən də gücdə, qüvvətdə
Pələngə, şirə çəkdim.
Ovladım maralları,
Doğradım, şirə çəkdim.
Ev tikdim vəhşi filə,
Suvadım, şirə çəkdim.
Sözümə baxmayanda
Bir şallaq kərgədana,
Birini şirə çəkdim.

## XƏCCƏ NƏNƏ

Xəccə nənəm Qubadadır,
Yamyaşıl bir obadadır.
Saçları ağ ipək kimi,
Birçəkləri çiçək kimi.
Gözləri dumduru bulaq,
Ağ üzünün nuruna bax!
Gör nə qədər nəvəsi var,
Hamısına töhfəsi var.
Gələndə yay günlərimiz,
Yığışırıq başına biz.
Bağda, çinar kölgəsində,
Ya da divar kölgəsində
Nağıl deyir Xəccə nənəm.
Qocalıq onu sıxanda,
Yadından  bir söz çıxanda,
Tez yadına salan mənəm.
Doymaq olmur sözlərindən,
Gülümsəyən gözlərindən.
Ağacdan üç alma düşür,
Üçü də mənə yetişir.
Onları bir-bir yeyirəm,
Nənəmə şeir deyirəm.

## AĞAC AT

At sürüb gəlir ata,
Qapıda atdan düşür,
Məni mindirir ata.
Heç bir az gəzdirməmiş,
— Bəsdir, - deyir, - daha düş! —
Səhərdən ac qalıb at.
Alıb düşürdür məni,
Yəhəri də götürür,
Atı buraxır ota.
Qoy getsin otlamağa,
Nəyimə gərək ac at.
Nə ot istəyir, nə su
Bu mindiyim ağac at.

## UÇAĞANIM

Barmağımın ucundan
Uç görüm, ay uçağan!
Yolda dayanma bir an.
Birbaş bizim dağa uç,
O gözəl yaylağa uç!
Düş nənəmin əlinə,
Ya da ipək telinə.
Denən gələcək nəvən,
Süd sərib, qaymaq tut sən.
Ona konfet almışam,
Ağappaq saçlarına
Qırmızı lent almışam.
Sapa mirvari düzüb
Taxacağam boynuna.
Çadırda soyuq olsa,
Girəcəyəm qoynuna.
Ay uçağan, istərəm
Lap cavanlaşsın nənəm.

Mənimlə göy çəməndə
Oynasın, qaçsın nənəm.
Uç nənəmin yanına,
Uçağanım, uç görüm,
Tez ol qanad aç görüm!

## GÖY NOĞULU

Guruldadı buludlar,
Dağlara dolu yağdı.
Dolu noğuldan yumru,
Dolu noğuldan ağdı.
Tappatap döydü dolu,
Qayanı, dağı-daşı.
Ağardı dağın başı.
Sonra da tez gün çıxdı.
Selə döndü ağ dolu,
Axdı, dağıtdı yolu.
Balaca Yalçınla mən,
Baxırdıq aynabənddən.
Yalçın sual verəndə
Dedim düşən noğuldu.
Dedi tez ol, get gətir.
Öz dilimin ucundan
Mənim işim nağıldı.
Noğul verdim almadı,
Hönkür-hönkür ağladı.
Çarəsiz çıxdım evdən,
Dağa dırmaşınca mən
Dolu suya dönmüşdü,
Elə bil ki, əlçatmaz
Bir yuxuya dönmüşdü.
Neçə ay qurtarmadı
Yalçının bu nağılı.
Yuxuda da deyirdi:
— Get gətir göy noğulu!

## ANAM EYDİRMƏ DEYİR

Anam incə səsiylə,
Ətirli nəfəsiylə
Eydirmə deyir yenə.
«Maral» da ona sarı
Boynunu əyir yenə.
Kövşəyir şirin-şirin,
Nəğmədən xoşhallanır.
Şüşələnmiş yelnində
Süd çoxalır, bollanır.
Elə bil eydirmədən
Şəkərlənir, ballanır:
«Maralım, ağ Maralım,
Ay mənim dağ maralım!
Alnında göz muncuğu,
Südü bulaq Maralım».
«Maral» nəğmə dinləyir,
«Maral» anama baxır.
Qalındodaq sərnicə
Südü qıjhaqıj axır.
Qızıl naxır içində
Varmı Maralın tayı?
Qaşqa balasının da
Doyuncadır süd payı.
Anam incə səsiylə
Eydirmə deyir yenə.
İnək də ona sarı
Boynunu əyir yenə.

## BABAM

Bir vaxt babam cavan imiş,
Dağ kürəkli çoban imiş.
Qovub çatırmış əliyə.
İndi çıxınca yoxuşu,

Başından dağılır huşu.
Söykənir zoğal çəliyə.
Belini qocalıq əyir,
Kövrəlir, bayatı deyir,
Mən yazıram gündəliyə.

## ƏN GÖZƏL ALMA

Vəkil bağa girmişdi,
Yeddi alma dərmişdi.
Bunlar bağ nübarıydı,
Ağacın ilk barıydı.
Soruşdum: — Kimə çatar
Almanın ən gözəli?
Balaca səbətinə
Uzandı topbul əli.
Ən ətirli almanı
Anasına uzatdı.
Gözündən gülüş yağdı,
Qaşlarını oynatdı.
Dedim ki: — Bəs atanı
Çox istəmirsənmi sən,
Ən ətirli almanı
Ona qıymadın nədən?
— Anam da kəsib verər
Parasını atama.
Onlara verdiyimi
Vermərəm hər adama.

## ÇİNAR ALTDA YATIR NƏNƏM

Qızıl xoruz, çıxma dama,
Qanad vurub quqquldama.
Axar sular, paqqıldama,
Çinar altda yatır nənəm.

Çil toyuğum, rahat-rahat,
Yumurtanın üstündə yat.
Haray salıb qaqqıldama,
Çinar altda yatır nənəm.

Ala qarğa, səsini kəs,
Sərin külək, astadan əs.
Qarğı çəpər, şıqqıldama,
Çinar altda yatır nənəm.

Çox içsə də dərman-dava,
Dərmanıdır təmiz hava.
Köhnə doqqaz, taqqıldama,
Çinar altda yatır nənəm.

## NEYLƏSİN FİZZƏ NƏNƏ

Neyləsin Fizzə nənə,
İlham küsübdür yenə.
Ayağın yerə döyür:
— Kağız yemirəm, - deyir,
Elə bilir kağızdır,
Kağız kimi ağ yuxa.
Sanki süddən tutulub
Ləzzətli qaymaq yuxa.
Şəhər çörəyi hanı
Bu dağların başında.
İlham yollara baxır
Tombul əli qaşında.
Gəlib çıxmır atası,
Payıza çox var hələ.
Nənəsi fətir salır
Sac üstə gülə-gülə.
İlham qalın fətirə
Hərdən gözaltı baxır,

Nənəsi dürmək verir,
Dişləyib yeyir axır.
Ancaq yuxa görəndə
Ayağın yerə döyür:
— Kağız yemirəm, - deyir.

## NƏNƏMİN ÇADIRINDA

Şəhərdə arzulardım
Bu dağları görməyi.
Ala qarlı yamacdan
Boyçiçəyi dərməyi.
Gələn günü qorxutdu
Məni itin hürməyi.
Çobanlar öyrəniblər
Burda ömür sürməyi.
Ləzzətlidir bulaqda
Pendir-yuxa dürməyi.
Nənəm öyrətdi mənə
Saçlarımı hörməyi.
Donumu özüm yuyub
Çadır üstə sərməyi.
Xoşlayıram nənəmə
Hər gün kömək verməyi.

## XİLASKAR

Çaylaqda qurbağanı
Tutmuşdu suilanı.
Qurbağa çığırırdı,
Körpüdən keçənləri
Köməyə çağırırdı.
Mən bir çomaq götürdüm,
Özümü tez yetirdim,

Məni görəndə çaşdı,
Qurbağanı buraxdı,
Suyun dibinə qaçdı.
Qurtardım qurbağanı
O ilanın ağzından.
Müəllim deyir: – gərək
Xilaskar olsun insan.

## TOPLANIM

Ağzıqara boz toplanım,
Mənim kələkbaz toplanım!
Dalımca hey qaça-qaça,
Çıxırsan yala-yamaca.
Kol-kosları qoxlayırsan,
Ayağını saxlayırsan,
Qulaqlarını qısırsan,
Hər səsə qulaq asırsan.
Tülkü-dovşan səndən qaçır.
Gendən baxır, gendən qaçır.
Diksindirib naxırçını,
Uçurdursan sığırçını.
Qaça-qaça, gəzə-gəzə
Cumursan bir dəstə qaza.
Qazlar bir az qaçışırlar,
Çığrışırlar, uçuşurlar.
Yal-yamacdan kəndə sarı,
Salamat düşsünlər barı.
Hərəsi bir yana düşür,
Bağçaya, bostana düşür.
Yamanca hirslənir nənəm,
Bunun günahkarı mənəm.
Zəncirdən açdım ki, səni,
Gəzəsən çölü, çəməni.
Mənim bir yaşlı toplanım,

Canavar dişli toplanım!
Gəl daha qayıdaq kəndə,
Günahkarıq sən də, mən də.
Zəncirləyim, hinində yat,
Sakit-sakit, rahat-rahat.
Mən də oxuyum dərsimi,
Hinində eşit səsimi.
Yuxuya gedəndə nənə,
Birlikdə gəzərik yenə.

## LAÇIN VƏ YALÇIN

Dağ döşündə gözəl Laçın,
Meşələri qırçın-qırçın.
Neçə yerdən qonaq gəlir,
Bu dağları görmək üçün.

Əliyi var, maralı var,
Qırğısı var, qartalı var.
Sərin-sərin bulaqları,
Şiş qayası, dik yalı var.

Bax bu qaya, bax bu Laçın,
Darıxır Bakıda Yalçın.
Öz balaca qonağını
Çağırır yaylağa Laçın.

Göy çəmənlər, çiçək açın,
Şehli-şehli şəfəq saçın.
Qarşılayın qonağı siz,
Kəpənəklər, uçun, uçun!

Çiçək dərsin ona Laçın,
Gözəl Laçın, sona Laçın.
Sevir əziz qonağını,
Əzizləyir ana Laçın.

Yalçının gözləri qara,
Baxır dağ başında qara.
Gəlir çəmən bulağına,
Göy otları yara-yara.

Torağaylar hey oxuyur,
Bulaqlarda ney oxuyur.
Bütün quşlar nəğmə deyir,
Elə bil yer-göy oxuyur.

Yalçın birdən dönür dala,
Qaçır haray sala-sala.
Çoban çıxır dağ başına
Qarğı tütək çala-çala.

Yanında da ala köpək,
Qıllı boynu şir boynu tək.
Qorxusundan fit çalmasın,
Cəsur olsun Yalçın gərək.

Bax belədir bizim Yalçın,
Darıxsa da dağlar üçün,
Dişlərindən qorxur itin,
Buynuzundan qorxur qoçun.

## DARAĞIM ÇAYA DÜŞDÜ

O daş körpünün üstdən
Axşam çaya baxırdım.
Çayda üşüyürdü ay,
Çimən aya baxırdım.
Saçlarımdan sürüşdü,
Darağım çaya düşdü.
Elə qıjıldayır ki,
Adam qorxudur bu çay.

Darağımı tut dedim,
Yüyürüb tutmadı ay.
Burulğanda buruldu,
Burulmaqdan yoruldu,
Dalğanın ağ saçında
Qızardı, axdı getdi.
Darağım küsdü məndən,
Baş aldı, çıxdı, getdi.
O küsmüş darağımı
Kim axtarsın-arasın.
Bacımdır telli söyüd,
Əl atıb tutsun onu,
Saçlarını darasın.

## ATAMA MƏKTUB

Gözümdən öpdün yuxuda,
Qəfil oyandım dan üzü.
Sübhəcən yatmayıb anam,
Dönüb kağıza bənizi.
Gah durub eyvana çıxır,
Gah dönüb baxır saata.
Bəs niyə gəlmirsən, ata,
Nigaran qoymusan bizi?!
Bu tufanlı gecələrdə
Necə qazırsan dənizi?!

## QOCALAR

Qocalar buluda baxıb:
— Yağışı var, - demişdilər.
Səhər hava bürosunun
Xəbərinə gülmüşdülər.
Doğrudan da yağdı yağış,
Onlar nədən bilmişdilər?

Parıldadı daş-qayalar,
Elə bildim gümüşdülər.
Fürsət tapdı dana-buzov,
Biz yetincə əmişdilər.
Gözəl yağdı günlü yağış,
Gül-çiçəklər gülə-gülə
çimişdilər.
Bu gün bağa girmək olmaz,
Qalın otlar nəmişdilər.
Qocalar buluda baxıb:
— Yağışı var, — demişdilər.

## XORUZUM

Mənim ağkəkil xoruzum,
Qanadı çil-çil xoruzum!
Pipiyin gül yarpağıdır,
Banla, səsi zil xoruzum!

Çıxma tayanın başına,
Uca qayanın başına.
Xəbərçi ala qarğa da
Qonmuş payanın başına.

Göydə çalağan dolanır,
Gözlərində qan dolanır.
Qarğa xəbər vermiş ona,
Bir bax, nə yaman dolanır!

Şığıyar, tez çalar səni,
Caynağına alar səni.
Xəzəl olar lələklərin,
Yaman günə salar səni.

Sözümü anla, xoruzum,
Qapıda banla, xoruzum.
Çıxma qayanın başına,
Oynama qanla, xoruzum.

## TƏLƏYƏ DÜŞƏN TÜLKÜ

Kələk qurdun, ovçu lələ,
Tutdu tələ quyruğumu.
Bircə parça ətdən ötrü
Verdim ələ quyruğumu.
Şir də gəldi dəyişmədim
Gözəl şələ quyruğumu.
Ah çəkərdi meşələrdə
Görsə dələ quyruğumu.
Dərimi sat papaqçıya,
Atma çölə quyruğumu.
Xanımlar boynundan asar
Gülə-gülə quyruğumu.
Çiyinlərdə gəzdirərlər
İndən belə quyruğumu.

## GÜLƏ YAZA

Qış istədi yaz günü
Qar tökə, gülə yaza.

Güllər yaman üşüdü,
Dözərmi gül ayaza?!

Bülbüllər şair ola,
Nə yazsa gülə yaza.

Ayaz gülə söz qoşdu,
Dost oldu gül Ayaza.

## ÇALAR

Ağacları birbəbir
Babam ha calar, calar.
Payızda almalara
Altdan haçalar çalar.
Göz dikər bağımıza,
Bağ üstə qanadını
Qarğa ha çalar, çalar.
Təbilçi ağacdələn
Dimdikləyib ağacı,
Hər gün ha çalar, çalar.

## BALACA BAĞBAN

Bağda bir gilas əkdim,
Hər gün nazını çəkdim.
Böyüdü, budaq atdı,
Başı eyvana çatdı.
Yazda ağ çiçək açdı,
Çiçəkləri nur saçdı
Bar verdi budaq-budaq,
Dolu gilələrə bax!
Şipşirindir bal kimi,
Süzülmüş zülal kimi.
Həm qırmızı, həm ağdır,
Hər budaq beş tabaqdır.
Zəhmət çəkəni mənəm,
Dad verəni torpaqdır.
Sevindi atam-anam,
Dedilər lap bağbanam.
Əydik budağı dərdik,
Dost-tanışa pay verdik.
Gilasın ilk barından,
Şirincə nübarından.
Hamı ləzzətlə yedi
Bağbana «sağ ol» – dedi.

## QARIŞQALAR

Uşaqlar, bir baxın, bu dağda çoxdur,
Bir vəhşi arılar, bir qarışqalar.

Əgər qarışqalar yesə torpağı,
Dağların boyu da bir qarış qalar.

Nənəm qarışqadan nağıl danışar,
Odunu ocağa bir qarış qalar.

Yaz günü yağan qar ağ qarışqamı,
Tökülər üst-üstə, bir qarış qalar.

## QIŞDA

Siz bu qışlaq yerində
Qalsanız qışda qalın.

Bura uca dağ deyil,
Qar yağa qışda, qalın.

Zəhmət çəkin, becərin,
Nə versə qışlaq, alın!

Yazın hər qayğısına,
Yazda yox, qışda qalın!

# BƏNÖVŞƏ KÜSƏYƏNDİ…

## KƏKLİK NƏĞMƏSİ

Dağlar məskənim oldu,
Güneylər mənim oldu.
Xınalarım, xallarım
Özümə qənim oldu.
Hansı daşda gizləndim
Ovçular tutdu soraq.
Qaq-qı-qa, qaq-qı-qa, qaq-qı-qa, qaq!

Mən ki, günahsız quşam,
Bu yerdə doğulmuşam.
Bəs niyə qoymursunuz
Bu dağlara söz qoşam?!
İnsafınız olmadı,
Qana boyandım nahaq,
Qaq-qı-qa, qaq-qı-qa, qaq-qı-qa, qaq!

Yamanca səsə düşdüm,
Nə kəskahəsə düşdüm.
Ya qonaq süfrəsinə,
Ya da qəfəsə düşdüm.
Bir qanlı dastanım var,
Oxunsa varaq-varaq,
Qaq-qı-qa, qaq-qı-qa, qaq-qı-qa, qaq!

## QOCA QAYA

Qoca qaya, yol üstündə,
Yerə batıb dizin sənin.
Neçə yerdən güllə dəyib,
Yaralanıb üzün sənin.

Sirdaşısan bu diyarın,
Çovğunun, boranın, qarın.

Elə bil ki, qartalların,
Yuvasıdır gözün sənin.

Neçin qərq olmusan qəmə,
Ümidlə bax bu aləmə.
Nə desəm qaytarıb demə,
Yoxmudur öz sözün sənin?

## BALACA BULAQ

Balaca bir bulağam,
Daşdan şırhaşır axdım.
Su verdim susuzlara,
Oğlanlara, qızlara.
Çəmənləri dolaşdım,
Özümə bir yol açdım.
Gəlib qoşuldum çaya,
Heyran oldum dünyaya.
Çay dağdan endi düzə,
Gəlib çatdı dənizə.
Xəzər çalxanır, daşır,
Dalğalar pıçıldaşır.
Sular ucsuz-bucaqsız,
Hardan belə güc alar,
Qayalara səs salar,
Dəniz çaysız, bulaqsız?!

## CÜYÜR

Meşəyə qar düşüb yenə,
Dan üzü cüyür oyandı.
Gəzdi, xəzəl tapdı, yedi,
Qaya dibində dayandı.

İylədi sönmüş ocağı,
Gözü gəzdi solu, sağı.
Meşənin ana qucağı,
Əzəldən ona həyandı.

Kimdir marıqda ov güdən,
Daşürək, acgöz, acgödən.
Barmağını sıxdı birdən,
Qar qızıl qana boyandı.

## BALLI QAYA

Bir qoca arıçısan,
Ey uca Ballı qaya.
Çay üstündə dayanmış
Xınalı, xallı qaya!
Hansı arıçıdansa
Küsüb qaçan arılar.
Uçan yumağa dönüb
Kənddən qaçan arılar.
Axtardı, tapdı səni,
Qoynunda yuva saldı.
Balından mən də yedim,
Ağzımda dadı qaldı.

## BƏNÖVŞƏ KÜSƏYƏNDİ

Tez gəl, əziz qaranquş,
Sən gəlməsən getmir qış.
Qoy yağsın bir ağ yağış,
Qoyma sazaqlar əsə,
Qışı kim tərifləsə,
Söz xətrinə dəyəndi,
Bənövşə küsəyəndi.

Kolda gizlənir hələ,
Dözməyir soyuq yelə.
Düşüb ağıza-dilə,
Həm kövrəkdir, həm qəşəng,
Mənim nazlı qızım tək,
Boynun yana əyəndi,
Bənövşə küsəyəndi.

Tünd maviyə boyanar,
Meh vuranda oyanar.
Kirimişcə dayanar,
Nədir dərdi-qübarı,
Heç varmı bir simsarı?!
Kimə bir söz deyəndi,
Bənövşə küsəyəndi.

Gəl ay qaranquşum, gəl,
Koldan çıxsın bu gözəl.
Dərdini kimə deyim,
Sazımda simə deyim.
Ayrılığa yox tabı
Tez-tez qəribsəyəndi,
Bənövşə küsəyəndi.

## DAĞA QAR YAĞIR

Hazırlayın xizəkləri,
Uşaqlar, dağa qar yağır.
Gəldi qışın oğlan çağı,
Çaya, bulağa qar yağır.

Hin tikdim – it üşüməsin,
Çulladım – at üşüməsin.
Bağçada tut üşüməsin,
Çılpaq budağa qar yağır.

Hey ələnir narın-narın,
Ləzzəti var belə qarın.
Boyunca qalxır hasarın,
Yola-yolağa qar yağır,
Hazırlayın xizəkləri,
Uşaqlar, dağa qar yağır.

## YAZ GƏLƏNDƏ

Çaylar daşıb selə dönər,
Çağıldaşa-çağıldaşa.
Bulanıq su pərdə tutar,
Yeddi rəngli çağıl daşa.

Dərələrdə duman yatar,
Dağın başı göyə çatar.
Durna gələr qatar-qatar,
Qağıldaşa-qağıldaşa.

Kəklik daşdan-daşa səkər,
Nəğməsini zilə çəkər.
Göyərçinlər yuva tikər,
Quğuldaşa-quğuldaşa.

Dağ günəşdən işıq sağar,
Dumanları külək boğar.
Yağışlar selləmə yağar,
Uğuldaşa-uğuldaşa.

Babam gəzmək həvəsində,
Baxar əli çənəsində.
Nənəmin də sinəsində,
Nağıl daşa, nağıl daşa…

## QOŞQAR

Qoşqar mənim ağ qoçum,
Hündür qoçum, dağ qoçum.
Buynuzları palıdlar,
Gözləri bulaq qoçum.

Göylər çiynində durur,
Buluda buynuz vurur.
Sınır göyün şüşəsi,
Su tökülür şırhaşır.

Şimşək çaxır başında,
Gədiyində, qaşında.
Qoşqar yaman qocadır,
Babam, nənəm yaşında.

Yunudur ipək otlar,
O yaşıl örpək otlar.
Qoşqar sürüdən ayrı,
Neçin belə tək otlar.

Qoşqar mənim ağ qoçum,
Döyüşkən, şıltaq qoçum.
Buynuzları palıdlar,
Gözləri bulaq qoçum.

## QUM ÜSTÜ

Dənizin qırağında,
İpəkdəndir qum üstü.
Çimdim, uzandım quma,
Dəniz soyuq, qum isti.

Həsir papaq qoymuşdum,
Başıma gün vurmasın.

Qumda çox uzanmadım,
Gün məni yandırmasın.

Dəniz coşub-daşırdı,
Güclü bir külək əsdi.
Atam dedi gəl gedək,
Bu gün çimdiyin bəsdi.

Ayrılmaq istəmirdim,
İpəkdəndir qum üstü.
Bürkülü yay günündə,
Dəniz soyuq, qum isti.

27.01.1999

## MƏN DƏNİZİ GÖRMÜŞƏM

Mən dənizi görmüşəm,
Çoxlu qanadları var.
Çırpılar qayalara
Qanadları şarhaşar.

Mən dənizi görmüşəm,
Yarı mavi, yarı ağ.
Elə bil qalxıb gəlir
Dağ dalınca uca dağ.

Mən dənizi görmüşəm,
Salıb qoynuna məni.
Atam suyun içində
Alıb boynuna məni.

Babam deyir batarsan,
Yaman dərindir dəniz.

Yayın qızmar günündə,
Necə sərindir dəniz,
Mən dənizi görmüşəm.

27.01.1999

## NƏRDİVAN QAYA

Göylərə nərdivansan,
Uca nərdivan qaya.
Qaldır məni günəşə,
Çatdır ulduza, aya!
Mən kosmonavt olsaydım,
Səndən uçardım göyə.
Çiynindən tərlan kimi
Qanad açardım göyə.
Qartalların evisən
Qızıl nərdivan qaya.
Yuvaların nə çoxdur,
Qartalın gəlməz saya.
Buludlar paltar olur
Hərdən əyninə sənin.
Koroğlu Qırat üstdə
Dönsün məğrur heykələ,
Qonsun çiyninə sənin!
Ucal ulduza, aya,
Sən Koroğlu babamı
Göstər bütün dünyaya,
Gözəl nərdivan qaya!

## GÖYGÖLƏ YARPAQ YAĞIR

Əsir payız küləyi,
Göygölə yarpaq yağır.
Sanki uçur havada

Yüz cürə quş lələyi.
Uçurtduğu xəzələ
Ağaclar da hey baxır,
Göygölə yarpaq yağır.

Çoxu sarı, qırmızı
Boyanıb gölün üzü.
Mavi suya tökülür
Ağacların ulduzu,
Göygölə yarpaq yağır.

Sanki quş balaları
Təzəcə qanad açıb,
Göyə qalxır yuvadan
Yorulur qanadları
Suya düşür havadan
Göygölə yarpaq yağır.

Göygölə yarpaq yağır
Günlü yağışlar kimi.
Göygöldə yarpaq üzür
Rəngbərəng quşlar kimi.
Gəlin, baxın, uşaqlar,
Görün nə sayaq yağır.
Göygölə yarpaq yağır,
Göygölə yarpaq yağır!..

## QARMAĞI QIRAN BALIQ

Səhər şəfəqlərindən
Qızıl balıq rənginə
Boyanmışdı Kür üzü.

Dadlıdır, ləzzətlidir
Kür suyunda bəslənən
Balıqların kürüsü.

Uca xəndək üstündən,
Qarmaq atdım Kürə mən.
Qarmaqdan soxulcanı
Almırdı heç birisi.

Birdən qarmağı dartdı,
Suları şappıldatdı.
Dartdı, dartdı, qopartdı
Bir yekəsi, irisi.

Əlimdə qarmaq sapı
Qalmışdım baxa-baxa.
Kür də mənə gülürdü,
Qımışıb axa-axa.

Bir balıqçı olaram,
Sulara tor salaram.
Onda düşər toruma
Balıqların sürüsü.

## KƏND AXŞAMI

Bostanımda şamamalar
Yatıb sarı tağ üstündə.

Uçuşarlar yarasalar
Alatoran bağ üstündə.

Televizor qülləsi var
Uzaqda bir dağ üstündə.

Uzun adamdır elə bil,
Dayanıb ayaq üstündə.

Uraladım almaları
Qalmadı budaq üstündə.

Anam da səhəng doldurur
Daş novlu bulaq üstündə.

Pıqqıldayıb gülür qazan
Gur yanan ocaq üstündə.

Dolaşırlar pərvanələr
Eyvanda çıraq üstündə.

Kəndə baxıb şəkil çəkir
Bacım ağ varaq üstündə.

## SÖYÜD

Niyə tökdün saçını
Bu çağlayan çaya sən?!
Dağlar yıxan Arazı
Salmadınmı saya sən?!

Yatırdıb səni laylay,
Xəndək yarılıb lay-lay.
Sularda çimərkən ay,
Nə söylərsən Aya sən?!

Ha yellədir yel səni,
Titrədir tel-tel səni.
Aparacaq sel səni,
Keçməsən bu taya sən!

## TORAĞAY

Dan yeri qızaranda
Öz yuvandan uçursan,
Göydə qanad açırsan,
Bahar nəğmələrini
Deyə-deyə, torağay!

Səsləyirsən səhəri,
Günün ilk şəfəqləri.
Körpə qanadlarına
Gərək dəyə, torağay!

Bu ilhamla, həvəslə,
Şirin cəhcəhli səslə
Sən hey qanad çalırsan
Qalxırsan, ucalırsan
Mavi göyə, torağay!

Şəfəqlərdən asılıb
Oynayırsan havada.
Tez qayıt, balaların
Üşüməsin yuvada.
Bir qırğıya tuş olma,
Bir də leyə, torağay!

## BAL ARISI

Gözəldir dağın ətəyi,
Düzülüb arı pətəyi.
Hər pətəkdən min bir arı
Uçur çəmənliyə sarı.
Bir dənəvər yağış kimi
Çəmənlərə arı yağır.
Arılar eydirmə deyir,
Çiçəklərdən şirə sağır.
Onlar da öz dillərində
Deyib-danışırlar nəsə.
Bir şadlıq var, bir çal-çağır,
Hamısı verib səs-səsə,
Uçub qayıdırlar yenə,
Yaraşıqlı evlərinə.
Şirəni çəkirlər şana,

Şanlar düzülür yan-yana.
Kəkotunun, qantəpərin
Ətri hopur dağ balına.
Can dərmanı demək olar
Bu dağların ağ balına.

## QIZILGÜL

Ay mənim qönçə gülüm,
Al gülüm, incə gülüm.
Sənin kimi sevinəm,
Sənin tək incə gülüm.

Yaraşıqsan bağa sən,
Töhfəsən qonağa sən.
Su verib hər gün babam,
Dönmüsən çırağa sən.

Qıymaram dərəm səni,
Saçıma hörəm səni.
İstərəm budaq üstə
Həmişə görəm səni.

Ay mənim qönçə gülüm,
Al gülüm, incə gülüm.

## AĞBULAQ ŞƏLALƏSİ

Qayadan sular atılar,
Səsindən qulaq tutular.
Şırhaşır, gurhagur axar,
Elə bil ildırım çaxar.
Ağ damcılar parıl-parıl,
Su quşları pırıl-pırıl

Hey uçuşar dörd bir yana,
Gün altında yana-yana.
Uşaqlar da dəstə-dəstə,
Min arzuda, min həvəsdə,
Hər gün nəğmə deyə-deyə,
Gəlib baxar şəlaləyə.
Axşam dönər evə sarı,
Kəndin gözəl uşaqları.
Dallarınca baxar, baxar,
Şəlalə qəmlənib axar.
O yorulmaz, yatmaz bir an,
Heç ləngiməz öz yolundan.
Gedər coşqun çaya çatar,
O çay da dəryaya çatar.

## KÜR YAXASINDA

Kür suyu saf şüşəydi,
Necə gözəl meşəydi
Kür boyunca yaxalar?!

Hanı güllər, çiçəklər,
Toz qaldıran küləklər
Qəfil bizi yaxalar.

Söyüdlər yarpağını,
Qızarmış ayağını
Kür suyunda yaxalar.

Meşələri qıranı,
Doğrayıb yandıranı,
Qurumuş ağac kimi
Yandıralar-yaxalar!

## AYIN AYNASI

Gözəl ayın aynasıdır bu bulaq,
Bulaq üstdən heç kəsilməz ayaqlar.

Suya düşər ayın sarı telləri,
Mənim kölgəm ay saçını ayaqlar.

Leysan yağar, bulandırar bulağı,
Görə bilməz öz şəklini, ay ağlar.

## TELLİ QAMIŞLAR

Yel vuranda yellənir,
Xışıldaşır, dillənir
Topa telli qamışlar.

Çəpər çəkir sulara,
Sonalara, qulara
Çaylı, göllü qamışlar.

Telindən damır yağış,
Kölgəsi naxış-naxış,
İncəbelli qamışlar.

Çox şeyə gərək olur,
Çobana tütək olur,
Bizim elli qamışlar.

Gözəl havalar çalır,
Qayalara səs salır.
Şirin dilli qamışlar,
Topa telli qamışlar.

## İŞIQLI

Nə gözəl dağdır İşıqlı,
Qara göl də aynasıdır.
Meh vurur, göl naxışlanır,
Duru sudur, ayna sudur.

Çiynində bulud tayası,
Çobana bənzər qayası.
Qızların dırnaq boyası
Daşlarının xınasıdır.

Sürülər göldən yuxarı,
Başından tükənməz qarı.
Burulub ördək qatarı,
Sinəsinə qonasıdır.

Xoşbəxtdir gülündən dərən,
Yeddi rəngli çələng hörən.
Onu bir yol gəlib görən
Ömür boyu anasıdır.

Gün çıxanda sanki yanar,
Axşam da nura boyanar.
Səhərlər tezdən oyanar,
Axı dağlar anasıdır.

## QARAGÖL YAYLAĞINDA

Şehli çəmən islatdı
Nənəmin balağını.
Tutdu, bağladı mıxa
Gamışın balağını.

Mozalan sancmış dana
Götürüldü dəlitək.

Uçurtdu qalağını.
Küçük də zingildədi.
Dana ayaqlamışdı
Yazığın ayağını.
Düşdü sal qayalara
Çəpişin bəyirtisi,
Bizim balaca Elşən
Dartmışdı qulağını.
Alabaş da yal yeyib,
Ləzzətlə yalayırdı
Dərin daş yalağını.
Naxırçılar işləyib
Səhmana salırdılar,
El yolunun üstdəki
Köçəri bulağını.
Beş yaşlı Nüşabə də
Qızlarla sudan gəlir.
Şəlləyib kürəyinə
Naxışlı bardağını.
Çobanın nəğməsindən
Dağ-daş da gülümsəyir.
Ayırmır dodağından
Tütəyin dodağını.
Mən də şer yazıram,
Yayda gəlib gəzirəm
Qaragöl yaylağını.

## QURDU QOVARKƏN

Ağ əmliyi qaçırdı qurd,
Tüfəngini hazırda tut.
Havanı yar, dumanı ud,
Dalınca çap, o qurdu tap!
Tarap-tarap… tarap-tarap!

Bu yurdu kim sığallamış,
Nə bir təpə, nə bir yoxuş?
Kəhər qulan havalı quş,
Qovunca qov, çapınca çap,
Tarap-tarap… tarap-tarap!

Haray salır çoban Piri,
Ağ əmliyi alın diri.
Düşüb xofa qaçır sürü,
Qaçır düzəndə şappaşap!
Tarap-tarap… tarap-tarap!

Qamış yarıldı şax-şarax,
Odur göründü yalquzaq,
Tüfəngi çax, tüfəngi çax!
Cilov düşər, dişinlə qap!
Tarap-tarap… tarap-tarap!

Külək kimi qaçan kəhər,
Qırğı kimi uçan kəhər.
Ağ əmliyi apardı qurd,
Haçan yetər, haçan kəhər?
Nə bir xəbər, nə bir cavab,
Tarap-tarap… tarap-tarap!

## YÜZBULAQ

Bu dağda bir Yüzbulaq var,
Gör nə qədər buzbulaq var.
Quzeyi mamırlı qaya,
Əl uzadır günə, aya.
Sinəsindən su çağlayır,
Yüzbulaq birdən ağlayır.
Yüz gözü var sal qayanın,
Bu nəhəg qartal qayanın.

Su süzülür şülək-şülək,
Damcıları qığılcım tək
Gün altında şölə saçır.
Otlar üstə puçur-puçur
Şehə dönər bu qətrələr,
Nələr var bu yerdə, nələr?!
Yeddi rəngli göyqurşağı
Nağıl eylər Yüzbulağı.
Bu dağda bir Yüzbulaq var,
Gör nə qədər buzbulaq var?!

## SARIBABA

Sarıbaba, Sarıbaba,
Dağların simsarı baba.
Neçin günəş əritməyir
Başındakı qarı, baba?

Sən ki yaxınsan günəşə,
Ayaz göylər mavi şüşə.
Bu göylərin rəngindədir
Kol dibində mor bənövşə.

Sarıbaba, nə ucasan,
Həm cavansan, həm qocasan.
İstərəm qoynuna gələm,
Boynumu da bir qucasan.

Nə çoxdur buz bulaqların,
Üstü yarpız bulaqların.
Ay düşəndə parıldaşır
Ulduz-ulduz bulaqların.

Daş gəmidir sal qayalar,
Boz qayalar, çal qayalar.
Dindirəndə söz qaytaran,
Dindirməsən lal qayalar.

Səslə məni, səsə gəlim,
Yollarını kəsə gəlim.
O mələşən cüyürlərin
Yanıma gəl desə, gəlim

Sarıbaba, Sarıbaba,
Dağların simsarı baba.
Sən həmişə qartal uçurt,
Qov bu yerdən sarı, baba!

## HƏCƏR BULAĞI

Dəstə tutub gəlmişik uca dağlara,
Yığışmışıq başına, Həcər bulağı!
Səpiləcək nəğməmiz yaz yağışıtək
Torpağına, daşına, Həcər bulağı!

Qızıl közə bənzəyir daşların, közə,
Qəhrəman nənəmizdən bir söz aç bizə.
Çiçəklər arasında gülürsən üzə,
Tərlan qonur qaşına, Həcər bulağı!

Sən Həcərin əlindən düşən bir ayna,
Göyərçintək quğulda, paqqılda, qayna.
Gözünə gün düşəndə şəfəqlə oyna,
Dözmərik göz yaşına, Həcər bulağı!

El qızı, el balası o qaçaq Həcər,
Boz atının gözləri çilçıraq Həcər!
Burdamı səngər tutub qəlbi dağ Həcər,
Divan tutub qoşuna, Həcər bulağı?!

En bu dağdan aşağı, Həkəriyə çat,
Sularını Arazın sularına qat.
Çoxalıb artacaqsan saatbasaat,
Kür çıxacaq qarşına, Həcər bulağı!

## GƏLİN QAYA

Gəlin qaya, gəlin bacı,
Başında var bulud tacı.
Sənmi belə bəzəmisən
Gül-çiçəklə yal-yamacı?!

Göy çəməndə sal qayasan,
Sinəsi xal-xal qayasan.
Daşa dönmüş gəlinmisən,
Ya doğrudan lal qayasan?!

Hər bir dağın öz dumanı,
Geyinirsən boz dumanı.
Güllərinə inci düzür
Şeh gətirən yaz dumanı.

Əfsanəli, nağıllısan,
Neçə igid oğullusan.
Şimşək çaxıb dolu yağsa,
Buludları noğullusan.

Sənin bir dostun var imiş,
Uca boylu çinar imiş.
Ürəyindən hər nə keçsə,
Söz demədən duyar imiş.

Gözü qanlı bir zalım xan,
Güdüb sizi zaman-zaman.
Sıyırıb öz xəncərini,
Oğlanı vurub arxadan.

Heyrətdənmi daş olmusan,
Dağlara yoldaş olmusan?!
Tütək çalan çobanlara
Bir qəmli sirdaş olmusan.

Gəlin bacı, gəlin qaya,
Keçən günü saya-saya.
Danışırsan o nağılı,
Gecələr ulduza, aya.

Dərdə batma, qəmə batma,
Qaşlarını bir də çatma.
O dərd yatsın, oyanmasın,
Ömür boyu heç oyatma.

Gülər üzlü balan bizik,
Hər qeydinə qalan bizik.
Şeypuru, təbili çalıb,
Dağlara səs salan bizik.

Bulaqların işıl-işıl,
Çəmənlərin yaşıl-yaşıl.
Əl tutuşub yallı gedək,
Cərgəmizə sən də qoşul!

Gəlin qaya, gəlin bacı,
Başında var bulud tacı.
Sənmi belə bəzəmisən
Gül-çiçəklə yal-yamacı?!

## CEYRAN

Dayan, çəkim şəklini
Bir qaçma, quzu ceyran!
İnsafsız ovçulara
Oxşatma bizi, ceyran!

Güclənəndə boran, qar,
Güdər səni canavar.
Namərd adamlar da var,
İçi qurd, üzü ceyran.

Otlağın solmuş sənin,
Gözlərin dolmuş sənin.
Qoruqçun olmuş sənin
Vurğunun sözü, ceyran!

## SARI NƏR

Bir baxın Sarı Nərə,
Başı dəyir göylərə.
Koroğlu nərəsidir
Onun çəkdiyi nərə.

Sürülər qatar-qatar,
Qaya dibində yatar.
Sarı Nərin ürgəci
Aya, ulduza çatar.

Bulud oynar, od çaxar,
Çaylar sellənib axar.
Bu dağ göyqurşağını
Əyri boynuna taxar.

Oynaşaq bulaq üstə,
Bu yaşıl yaylaq üstə.
Bir vaxt Aşıq Ələsgər
Saz çalmış bu dağ üstə.

Bizə nəğməsi qalmış,
Nələr töhfəsi qalmış.
Çiçəklərdə nəfəsi,
Çaylarda səsi qalmış.

Nə ucadır Sarı Nər,
Hər bir yandan görünər.
Bu dağı duman alsa,
Nənəm şala bürünər.

Qüzeydən qar əriməz,
Seli-suyu kiriməz.
Keçər illər karvanı,
Sarı Nər heç yeriməz.

Çiyələk dərə-dərə,
Çıxmışıq Sarı Nərə.
Burda qartala dönüb,
Biz də uçaq göylərə.

## XƏZƏL

Bağlar saraldı, soldu,
Yarpaqlar xəzəl oldu.
Yuvalar bomboz qaldı,
Budaqdan düşdü xəzəl.

Külək qaldırdı göyə,
Bir havada uç deyə.
Nə dedi çərpələyə,
Yanından keçdi xəzəl?!

Gah ucaldı, gah endi,
Son dəfə gördü kəndi.
Sarı quşlara döndü,
Çinardan köçdü xəzəl.

## YAZ BULUDU

Balasını qurd aparan
    boz keçidir yaz buludu.
Gəzə-gəzə mələdikcə
    süd tökülür məməsindən.
İldırım da bir çobandır,
    silahlanıb qovar qurdu,
Meşələrə od saçılır
    tüfənginin lüləsindən.

## YAZ YAĞIŞI

Qaraldı boz buludlar, çaxnaşdı birdən-birə
Şimşək fitil qoyunca gurladı gurul-gurul.
İplik-iplik açılıb göylər töküldü yerə,
Kükrəmiş selə döndü, çağladı şırıl-şırıl.

Dəhlizə doldu hamı, dağ-dərə səsə düşdü,
İslanmış oğlanlara qızlar baxıb gülüşdü.
Qoyun-quzu yamacda topalandı, büzüşdü,
Boğuşdu sel daşları qurd kimi xırıl-xırıl.

Çoban qaçıb girsə də qayanın daldasına,
Dözdü qaraca köpək sürünün cəfasına.
Sərçələr qapılardan qalxınca yuvasına
İslanmış qanadları çırpındı pırıl-pırıl.

Buludun ətəyindən töküldü gövhər yağış,
Açıldı göy qurşağı, kəsdi dənəvər yağış.
Xırda göllər yaratdı parlaq, günəvər yağış,
Fərəhlə quruldadı qurbağa qurul-qurul.

Günəş qalxıb ucaldı bacaların tuşuna,
Zər saçıldı dağların torpağına, daşına.
Könlüm kimi dolandı doğma kəndin başına,
Qaranquşla göyərçin fırlandı fırıl-fırıl.

## BOYÇİÇƏYİ

– Ay sarı telli çiçək,
Ay incə belli çiçək!
Nərgizdir mənim adım,
Çəmənləri aradım.
Sənə tay çiçək hanı,
Gəzsəm də bu dünyanı.
Ürək sözümü dinlə,

Bacılıq ol mənimlə.
Bilmirəm adın nədir,
İşığın, odun nədir?
Çəməndən boylanırsan.
Bir köz kimi yanırsan.
– Razıyam, gözəl Nərgiz,
Gəl bacılıq olaq biz.
Mən ki, Boyçiçəyiyəm,
El içində xətrim var,
Azalmayan ətrim var.
Dərilsəm də solmaram,
Çəmənə dərd olmaram.
Gəlinlərin, qızların,
Gözləri ulduzların
Bağçasını bəzərəm,
Gül əllərdə gəzərəm.
Solmaz toyçiçəyiyəm,
Dər məni, dəstə bağla,
Qurut, kölgədə saxla,
Şəhərə sovqat apar,
Hamı duysun ətrimi,
Əzizləsin xətrimi.
Mən bu qarlı dağların,
Bu şırşır bulaqların,
Gözəl yay çiçəyiyəm,
Sarı Boyçiçəyiyəm.

## ANAM XALÇA TOXUYAR

Anam xalça toxuyar,
Həzin-həzin oxuyar.
Hər gün məni anınca,
Həsrətimlə yanınca,
Qar düşür tellərinə.
Gözündən əllərinə
İlıq damcılar damar.

Əlləri damar-damar,
Əlləri damar-damar.

Gözlərimin rəngini,
Şerimin ahəngini
Naxışlara toxuyar.
Naxışlar gül qoxuyar.
Sevinc yanar gözündə,
O solğunca üzündə
Qaysaqlanar qırışlar –
Gülümsər xumar-xumar,
Gülümsər xumar-xumar.

Qonaq gələr nəvəsi,
Artar eşqi, həvəsi.
İpləri bir-bir düzər,
Onun adını yazar
Xalçanın həşyəsinə.
Göz dikər nəvəsinə,
Qızın mavi lenti var –
Telləri tumar-tumar,
Telləri tumar-tumar.

Yanında dükcə, yumaq,
İpliyi boyaq-boyaq.
Bütün obalar yatar,
O hələ arğac atar.
İplərə sünbül çəkər,
Bülbül çəkər, gül çəkər.
Banlaşınca xoruzlar –
Toxuyar hamar-hamar,
Oxuyar hamar-hamar…

## ÇİÇƏKLƏRİN
## YEDDİ BACISI

### 1. Ağ kəpənək

Mən qanadlı bir çiçəyəm,
Çiçəklər kimi göyçəyəm.
Bacısıyam ağ çiçəyin,
O incəyarpaq çiçəyin.
Uçub gəzirəm hər yanı,
Çəməni, bağı, bostanı.
Qonaq gedirəm yaylağa,
Yarpızlı, soyuq bulağa.
Bircə zərrə su içirəm,
Yenə də qanad açıram.
Göy havada süzə-süzə,
Uça-uça, gəzə-gəzə
Gəlib bacıma dəyirəm,
Ona xoş gün diləyirəm.
Qonub ləçəyinin üstə,
Danışıram asta-asta,
Gördüyümdən, bildiyimdən,
Hara gedib gəldiyimdən.
Heç kim eşitmir səsimi,
Hənirtimi, nəfəsimi.
Dilimi öz bacım bilir,
Məni görcək üzü gülür.
Mən qanadlı bir çiçəyəm,
Ağ çiçək kimi göyçəyəm.

### 2. Mavi kəpənək

O küsəyən bənövşənin
Mən kəpənək bacısıyam.
Boynun əyən bənövşənin
Qəlbi kövrək bacısıyam.

Hey dolanıram başına,
Bəlkə fikrindən daşına.
Nədənsə baxmır üzümə,
Qulaq asmır bir sözümə.
Bilmirəm heç nədən küsüb,
Neyləmişəm məndən küsüb?!
Deyirəm: – al qanadımı,
Sənə verim öz adımı.
İndi də sən ol kəpənək,
Təki küsməyindən əl çək.
Belə tərs olmaz bacılar,
Küsülü qalmaz bacılar.

### 3. Çəhrayı kəpənək

Mənim bacım qarçiçəyi,
Gülərüz bahar çiçəyi.
Bir adı da xəccəgülü,
Çəmənlərin incə gülü.
Qar altından çıxıb gülür,
Ləçəyindən nur tökülür.
Baharın ilk təbəssümü,
Gözəldir ağ şəfəq kimi.
Şaxtadan da, borandan da,
Çovğundan da, tufandan da
Qorxan deyil gözəl bacım,
Hər çiçəkdən əzəl bacım.
Qar əriyir gülüşüylə,
Bahar gəlir gəlişiylə.

### 4. Sarı kəpənək

Sarı çiçəyəm mən də,
Uçaram bu çəməndə
Başımda da tacım var,
Çoxlu sarı bacım var.

Hamısını öpürəm,
Üstünə zər səpirəm.
Qaymaqçiçəyinə bax,
Elə bil dil açacaq.
Şirə verir arıya,
Hamı baldan yarıya.
Sarışın, ballı yonca,
Ləçəyi xallı yonca:
– Gəl, çiynimə düş, – deyir –
Şərbətimdən iç deyir.
Nərgiz – sarı işıqdır,
Çəmənə yaraşıqdır.
Mən də ay şöləsiyəm,
Çiçəkli çəmənlərə
Baharın töhfəsiyəm.
Bu dağlar çənsiz olmaz,
Çiçəklər mənsiz olmaz.

## 5. Qırmızı kəpənək

Qırmızıyam, qırmızı,
çiçəklərin ulduzu.
Qanadımı çırpıram,
Elə bil göz qırpıram.
Qızıl donlu lalələr
Məni görüb əl elər,
Çağırar öz yanına,
Baxmaq üçün donuna.
Qara gözlü bacımın,
Günəş üzlü bacımın
Üzündə şeh damcısı,
Nur saçır bir damcı su.
Bənzətmərəm inciyə,
Qorxuram ki, inciyə.
Al güllər, al çiçəklər,
Bu gözəllər, göyçəklər

Qanadımdan rəng almış,
Çəmənə işıq salmış.
Mən bir günəş qızıyam,
Çiçəklər ulduzuyam.

### 6. Yaşıl kəpənək

Çəmən yaşıl, meşə yaşıl,
Olaydı həmişə yaşıl.
Yaşıl yarpaq mənimkidir,
Bu dərə, dağ mənimkidir.
Yaşıl söyüd, yaşıl çinar,
Yaşıl qovaq mənimkidir.
Bahar yaşıl geyib gələr,
Bahar məni deyib gələr.
Mən bacıyam hər yarpağa,
Tər çiçəyə, tər yarpağa,
Tər çiçəyə, tər yarpağa.
Qanadımda qırmızı xal,
Mənə baxıb xəyala dal.
Dünya yaşıl geyinəydi,
Bu rəng ilə öyünəydi.

### 7. Əlvan kəpənək

Bu dağda, çöldə, çəməndə
süsənə bacıyam mən də.
Yeddi rəngli donumuz var,
Əzizləmiş bizi bahar.
Yarandıq göy qurşağından,
Baharın öz boyağından.
Yeddi rəng ilə yanaram,
Çiçəyə, gülə qonaram.
Qanadlarım solmaz mənim,
Paltarımdan olmaz mənim.
Bəhsə düşər süsən bacım,

Hərdən məndən küsən bacım
Deyər: – qəşəng bəzənmisən,
Bəs neçin tək bəzənmisən?
Məndən göyçək olduğunu,
Gözəl çiçək olduğunu
Özü bilməz nazlı süsən,
Baxışları sözlü süsən.
Qoy uşaqlar desin bunu:
Kimin gözəl olduğunu.

## DAĞIN PALTARI

Bu dağların dörd donu var,
Düymələri par-par yanar.
Göy paltarı geyən çağı,
İşıq saçar ağ papağı
Göydən sonra yaşıl geyər,
Çaylar ona nəğmə deyər.
Tərk edəndə quşlar onu,
Tez geyinər sarı donu.
Dediyimə inanmasan
Gəl gör özün bu dağları.
Mən istidə geyinirəm,
O, soyuqda ağ paltarı.

## AĞAC ƏKƏK, GÜL ƏKƏK

Yollar boyu cərgələnsin göy çinar,
Yaman əllər budaqları qırmasın!
Uşaqlardan incimәsin ilk bahar,
Küləklər də bizə tənə vurmasın,
Yaman əllər budaqları qırmasın!

Pıçıldasın söyüdlərin yarpağı,
Hər fidanı canımız tək qoruyaq.

Yaralanmış, zədələnmiş budağı
Qolumuzun yarası tək sarıyaq,
Hər fidanı canımız tək qoruyaq.

Tikildikcə yeni-yeni binalar,
Həyətində ağac əkək, gül əkək.
Gəlib üzsün hovuzlarda sonalar,
Təbiətin hər nazını biz çəkək,
Qovaq əkək, söyüd əkək, gül əkək!

Çinarların pıçıltısı, nəğməsi
Göy Xəzərlə daim olsun həmahəng.
Seyr etdikcə sevindirsin hər kəsi
Telli söyüd pıçıldasın bulaqtək,
Göy Xəzərlə daim olsun həmahəng.

Yollar boyu cərgələnsin göy çinar,
Yaman əllər budaqları qırmasın!
Uşaqlardan inciməsin ilk bahar,
Küləklər də bizə tənə vurmasın,
Yaman əllər budaqları qırmasın!

## ŞANI

Hara baxırsan tənək,
Hara baxırsan üzüm,
Salxımlar düzüm-düzüm.
Şirinliyi dil yaran
Qara şanı, ağ şanı,
Bir də ki, sarı şanı.
Bu gözəl Abşeronun
Neməti, barı şanı.
Bağımız bir süfrədir,
Ona yaraşıq verər,
Ürəkdə qüvvət olar,
Gözə də işıq verər,
Qara şanı, ağ şanı,

Bir də ki, sarı şanı.
Bu bağın qumu narın,
Yatar isti qumların
Qoynunda gilə-gilə,
Yarpaqlar arasından
Boylanar gülə-gülə.
Yığaram, pay tutaram
Göndərrəm nənəmgilə.
Sevindirər nənəmi
Qara şanı, ağ şanı,
Bir də ki, sarı şanı.
Deyər: - nəvəm göndərib,
Öz əllərilə dərib.
Buna tay olar ancaq
Dağlarda arı şanı.
Qara şanı, ağ şanı,
Bir də ki, sarı şanı.

## DAŞQIN ÇAY

Haray düşdü çay üstdəki kəndlərə,
Görməmişdim belə coşub-daşa çay.

Elə bil ki, qoç döyüşür şaqqaşaq,
Sel içində daşı vurur daşa çay.

Söyüdləri lap kökündən qopardır,
Az qalar ki, qaya üstdən aşa çay.

İstərəm ki, sakit olub kiriyə,
Bu dağlara min bir nəğmə qoşa çay.

Deyirlər ki, gedib çatır Xəzərə,
Orda vurur səfərini başa çay.

Körpümüzü uçurtmadın, yıxmadın,
Yaşa səni, yaşa səni, yaşa çay!

# SİZƏ QURBAN OLUM MƏN…

## OYNAĞAN BALAM

*Qızım Süsənə*

Ağzı bircə dişli, yarımca yaşlı,
Dodağı gülüşlü oynağan balam.
Kirpikləri yaşlı, qalınca qaşlı,
Acanda savaşlı, ağlağan balam.

Nazikcə barmaqlı, tombul ayaqlı,
Şöləvər yanaqlı, qönçə dodaqlı,
Baxışı çıraqlı, ağca buxaqlı,
Qara gözlərindən nur yağan balam.

Baxtımın töhfəsi, çiçək nəfəsi,
Yumruca çənəsi fındıq ləpəsi.
Səadət müjdəsi şirincə səsi,
Mənim xoş xəbərli sağsağan balam.

Yanında bir qucaq zərif oyuncaq:
Keçinin rəngi ağ, itinki bozraq.
Gözündə ilk maraq: hər şeyi tutmaq,
İlanboğan balam, itboğan balam.

Şəkərim, şərbətim – şirin nemətim,
Dərmanın, şəfqətim, sözüm-söhbətim.
Ülfətim, ismətim, adım-şöhrətim –
Ana vətənimə ərməğan balam.

1960

## QIZIMIN BALALARI

Nəvələrim üç almaya bənzəyir:
Biri dəymiş, biri meyxoş, biri kal.
Dəymiş kimdi, meyxoş kimdi, kal kimdi?
Daşqın dəymiş, Toğrul meyxoş, Şaiq kal.

Nəvələrim üç çiçəyə bənzəyir:
Biri bəyaz, biri sarı, biri al.
Bəyaz kimdi, sarı kimdi, al kimdi?
Daşqın bəyaz, Toğrul sarı, Şaiq al.

Nəvələrim üç quzuya bənzəyir:
Biri təpəl, biri səkil, biri çal.
Təpəl kimdi, səkil kimdi, çal kimdi?
Daşqın təpəl, Toğrul səkil, Şaiq çal.

Nəvələrim üç nemətə bənzəyir:
Biri şəkər, biri bəhməz, biri bal.
Şəkər kimdi, bəhməz kimdi, bal kimdi?
Daşqın şəkər, Toğrul bəhməz, Şaiq bal.

Nəvələrim bu üç sözə bənzəyir:
Biri «gətir», biri «götür», biri «al».
«Gətir» kimdi, «götür» kimdi, «al» kimdi?
Daşqın «gətir», Toğrul «götür», Şaiq «al».

Nəvələrim nənəsinin üzündə
Biri gözdü, biri qaşdı, biri xal.
Göz hansıdı, qaş hansıdı, xal kimdi?
Daşqın gözdü, Toğrul qaşdı, Şaiq xal.

15.10.1995

## DAŞQINIM

Ömrümün qüssəli, payız çağını,
Döndərdi bayrama, toya Daşqınım.
Selə bənzəməsin, sel evlər yıxar,
Bənzəsin gur axan çaya Daşqınım.

Açılıb güneydə yaz gülü kimi,
Laçın dağlarının öz gülü kimi.

Qəlbi zərif olsun saz teli kimi,
Cüssəsi, vüqarı qaya Daşqının.

Bu körpəcə nərə, bu körpəcə ün,
Sinəmdən dərdimi eylədi sürgün.
Şeir kitabımı aparar bir gün,
Özüylə ulduza, aya Daşqınım.

Daha da gur yanar ocağım-közüm,
Nəvə gülüşü tək bal dadar sözüm.
Nəvə həsrətiylə yoldaydı gözüm,
Vaxtında yetişdi haya Daşqınım.

Andırır dağların təzə qarını,
Zaman sınayacaq etibarını.
Koroğlu nəslini, Od diyarını,
Dünyanın ziynəti saya Daşqınım,
Tez böyü, tez yetiş boya, Daşqınım.

18 noyabr, 1984

## DAŞQININ BİR YAŞI

Bu gün bir yaşını bayram elədik,
Gün gələr, yüz ilə çatar Daşqınım.
Təzəcə öyrənir addım atmağı,
Hələ ki, divardan tutar Daşqınım.

Kiçik qardaşına verdi beşiyi,
İndi də manejdir evi-eşiyi.
Ayını, kuklanı, iti, pişiyi,
Yığar, bir-birinə qatar Daşqınım.

Gör neçə havanı bilir, oynayır,
Qucaqdan qucağa gəlir, oynayır.
Çırtıq çalanda da gülür, oynayır,
Yatanda nəğməylə yatar Daşqınım.

Axtarar babanın künc-bucağını,
Gördükləri nədir: kağız yığını.
Elə ki, hirsləndi, oyuncağını
Adamın başına atar Daşqınım.

İndi bir oyuncaq sayar şerimi,
Cırar, yaman günə qoyar şerimi.
Yekələr, oxuyub duyar şerimi,
Qızılgül ətrinə batar Daşqınım.

15 noyabr, 1985

## DAŞQININ SƏKKİZ YAŞINA

İlk nəvədən şirin nə var dünyada,
Xoşdur bizə hər şıltağı Daşqının.
Səkkiz yaşı tamam olur bu axşam,
Nur çiləsin çil-çırağı Daşqının.

Gah Şaiqlə, gah Toğrulla deyişir,
Gah dost olur, gah qızışıb döyüşür.
Duran yerdə yumruqları geyişir,
Dinc dayanmır əl-ayağı Daşqının.

Kitablardan ayırmasın gözünü,
Yaşa dolsun, elmə tutsun üzünü.
Elm öyrənsə bükən olmaz dizini,
Min bar verər arzu bağı Daşqının.

Sağalmışam neçə dərddən, yaradan,
Gəlin baxtım don geyməmiş qaradan.
Mənə bir də möhlət verə yaradan,
Yetişincə bəylik çağı Daşqının.

15.09.1992

## DAŞQININ DOQQUZ YAŞINA

Ucaldım göylərin doqquz qatına,
Boy atıb yetişdi doqquza Daşqın.
Kaş ki, ömrüm çata toy-büsatına,
Qəlbini verəndə bir qıza Daşqın.

Çıxarıq zamanın qanlı çağından,
İçərik dağların buz bulağından.
Toğrulla, Şaiqlə Laçın dağından
Baxar bir gün aya, ulduza Daşqın.

Fələyin əlində əyilmiş qabam,
Görəydim yurduna qayıtmış obam.
Deyər nə tez köçdü bu şair babam,
Çəkər surətimi kağıza Daşqın.

15.11.1993.

## DAŞQININ AD GÜNÜNƏ

İlkimin ilkisən, a Daşqın balam,
Fərəh nəğməsidir on yaşın sənin.
Sağında, solunda Şaiqlə, Toğrul
İki şahin kimi qardaşın sənin.

Həkəri çayıtək xəyalın daşır,
Elə bil qayalar çiynindən aşır.
Daşqınlıq daha çox sənə yaraşır,
Varsa da yüzlərcə adaşın sənin.

Sən öz hünərini bilikdə sına,
Qıyma ki, sözündən bir könül sına.
Düşsən də dünyanın min qovğasına,
Olmasın baxtınla savaşın sənin.

Ana xətri saxla, ata qədri bil,
Ana – gül ağacı, balası – bülbül.
Dönməsin əhdindən, keçsə də yüz il,
Könlünü verdiyin sirdaşın sənin.

Arzun qönçə tutub açdıqca çiçək,
Xatırla, şövq ilə surətimi çək.
Baş daşım dil açıb, oxxay deyəcək.
Qəbrimə damanda göz yaşın sənin.

Haqqın mehvərində dolana dövran,
Bir də tökülməyə yurdumuza qan.
İnci sorağına düşsən bir zaman,
Mənim sözüm olsun daşqaşın sənin.

15.11.1994.

## DAŞQINA TƏBRİK

Şaiq balam bir qoç quzu,
Toğrulum durna xoruzu.
Nəvələrim ulduz bürcü,
Daşqınım da dan ulduzu.
Dan ulduzum gur işıqlı,
Gülər üzlü, yaraşıqlı.
Mübarəkdir on bir yaşı,
Dağ kimi ucalsın başı!

15 noyabr, 1995.

## İLKİMİN İLKİ

*(Daşqının ad gününə)*

Sən ilkimin ilkisən,
Nəvə nübarım Daşqın.
Gözünə baba qurban,
Fəxrim–vüqarım Daşqın!

Ayım, günüm, ülkərim,
Ağoğlanım, Həkərim.
Dağ dolusu gövhərim,
Bağ dolu barım Daşqın.

Var olsun anan, atan,
İmam ətəyi tutan.
Xain gözlərə batan
Öz Zülfüqarım Daşqın!

Həyat deyilən budur:
Oxu, öyrən, yarat, qur!
Sellər qabağında dur,
Bürcüm-hasarım Daşqın!

Süzülmüsən şanımdan,
Şirinsən öz canımdan.
Qorxmuram xəzanımdan,
Sənsən baharım, Daşqın!

Ucaldar səni vətən,
Vətəndir dada yetən.
Halal kök üstə bitən
Pöhrə çinarım Daşqın.

7.11.1996.

## AT MİNƏN ÇAĞI DAŞQININ

Gözüm aydın, gəlib çatdı
At minən çağı Daşqının.
Koroğlunun Eyvazıtək
Çıxar sorağı Daşqının.

Gülüşləri fərəh saçar,
Gözündən şəfəqlər uçar.

Novxanıda güllər açar
O gözəl bağı Daşqının.

Bir kimsə bükməz qolumu,
Zəhmi basar sağ-solumu.
Laçında gözlər yolunu
Keyvir bulağı Daşqının.

Dərsinin qaydına qalar,
Min bir kitabdan nur alar.
Yurdumuza işıq salar
Kamal çırağı Daşqının.

Toğrul, Şaiq iki gözü,
Deməsəm də bilir özü.
Söylənəndə baba sözü,
Gülər dodağı Daşqının.

Dağ kimi ucalsın başı,
Gövhərə döndərsin daşı.
Mübarəkdir on dörd yaşı-
İgidlik çağı Daşqının!

15.11.1998.

## DAŞQINIM ON BEŞ YAŞINDA

*Eyvazım on beş yaşında,*
*Qüdrət qələmi qaşında.*
*Durna teli var başında,*
*Bu gələn Eyvaz, bu gələn.*
***Koroğlu***

Yola saldın on beş ili,
Çatmısan oğlan yaşına.
Şair baban nəğmə yazır

Alıcı tərlan yaşına,
Çatmısan oğlan yaşına.

Çaylar kimi qanın daşır,
Xəyalın dağlardan aşır.
Həm ağıl-kamal yaraşır,
Həm ədab-ərkan yaşına,
Çatmısan oğlan yaşına.

Gözündə bir məşəl yanır,
Üzün gülüşə boyanır.
Anan qızlara boylanır,
Az qalıb ərgan yaşına,
Çatmısan oğlan yaşına.

Qeyrətimiz qanındadır,
Cövhərimiz canındadır.
Nənələrin yanındadır,
Onlar da qurban yaşına,
Çatmısan oğlan yaşına.

Görməyəsən ağrı-acı,
Tanrı müşküllər əlacı.
Atandır başının tacı,
Odur şərəf-şan yaşına,
Çatmısan oğlan yaşına.

Yaradan qaydıma qala,
Başıma bir kölgə sala.
Toyunacan ömrüm ola,
Bağlayam dastan yaşına,
Çatmısan oğlan yaşına.

10.11.1999.

## GÜL AÇIB BAĞI DAŞQININ

Əsl cənnətə bənzəyir,
Gül açıb bağı Daşqının.
Qoca şair babasıdır
Əziz qonağı Daşqının.

Başlayır coşub-daşmağa,
Məzələnib sulaşmağa.
Adam gəzir dalaşmağa
Əli-ayağı Daşqının.

Xoşladığı göy gavalı,
Sanki yeyir beçə balı.
Bülbülə döndərir lalı
Dili-dodağı Daşqının.

Çoxsa da küyü-kələyi,
Teldən incədir ürəyi.
Gül açsın min bir diləyi,
Axsın bulağı Daşqının.

Bir eşqin ilki-əzəli,
Sevər nazlı bir gözəli.
Yandırıb haqqın öz əli,
Yanır çırağı Daşqının.

Alnında mərdanə qürur,
Babasının gözündə nur.
Könlümə gün kimi doğur
Cavanlıq çağı Daşqının.

29.11.1999.

## DAŞQININ AD GÜNÜ

Daşqınım dağ çayıdır, axıb dəryaya çatar,
Dalğaları hayqırar, yanıq səhraya çatar.

O da Məsiha kimi pərvərdigar eşqinə
Qorxulu yollar keçər, uca minaya çatar.

On altı yaşındadır aslan ürəkli nəvəm,
Alov kimi kükrəyər, haya-haraya çatar.

Elmin dərin ümmanı qorxudarmı qəvvası,
Hər kitab bir dünyadır, neçə dünyaya çatar.

Bir sənəmin gözləri sehrləsə qəlbini,
Məcnuna tənə vurar, gedər Leylaya çatar.

Şah sözünə aldanıb dağ yarmaz Fərhad kimi,
Şirin-şəkər diliylə şirin sevdaya çatar.

Ucaldar babanın da ağ buludlu başını,
Dağlardan uca qalxar, günəşə, aya çatar.

15.11.2000.

## BİR NƏVƏM DƏ GƏLDİ DÜNYAYA MƏNİM

Bir nəvəm də gəldi dünyaya mənim,
Üzümə bənzəyir üzü Toğrulun.
Dərd ilə çarpışır şair babası,
Hələ yazılmayıb sözü Toğrulun.

Çiçəklər solanda açılan çiçək,
Bir bahar gətirsin ömrümə gərək.

İlhamlı yaranıb öz babası tək,
Gözəl axtaracaq gözü Toğrulun.

Onundur dünyanın gözəl ağuşu,
Səsi çeşmələrin həzin axışı.
Bulaq gözü kimi safdır baxışı
Üzümə göz dikən quzu Toğrulun.

Gör mənim ömrümə neçə yaz düşüb,
Neçə nəğmə düşüb, xoş avaz düşüb.
Şəkəri Daşqından bəlkə az düşüb,
Daşqından artıqdır duzu Toğrulun.

Xoşbəxtsən, Kürdoğlu, qoca yaşında,
Şirin nəvələrin oynar qarşında,
Torpağa dönərsən dağlar başında,
Düşər qəbrin üstə izi Toğrulun.

17.11.1985.

## NƏVƏM TOĞRULUN
## BİR YAŞINA

Mənim Toğrul balam, gəl çiynim üstə,
Oxu şirin-şirin torağay kimi.
Cəhcəhin ömrümə bahar gətirsin,
Çıxım yatağımdan daşqın çay kimi.

Güney bulağı tək qaynasın qanın,
Uca dağlar aşsın ömür karvanın.
Artır işığını qoca dünyanın,
Nur saç günəş kimi, bütöv ay kimi.

Qoşa budaqsınız, qalxın, ucalın,
Dünyanın hüsnündən min bir kam alın!

Mənim də başıma siz kölgə salın
Belim büküləndə bir vaxt yay kimi.

Süsən sünbülümün qızılca dəni,
Dil aç, ad gününə çağır dədəni.
Şerimin ahəngi yatırdar səni
Bir xoş avaz kimi, bir laylay kimi.

Nurlansın babalar, nənələr gözü,
Dönsün dürdanəyə Kürdoğlu sözü.
Tale nə yaxşı ki, yetirdi sizi
Beçə balından da şirin pay kimi.

15 oktyabr, 1986

## TOĞRULUN AD GÜNÜNƏ

Mənim Toğuş balam, şivərək nəvəm,
Boy at, qamətində bir çinar görüm.
Ömrünə gün doğsun öz əməlindən,
Baxtını həmişə bəxtiyar görüm.

Kamil qəvvas kimi sən üzə-üzə,
Elmin dəryasından dürr çıxart bizə.
Daşqınla, Şaiqlə bir-birinizə
Sizi arxa görüm, fədakar görüm.

Təzəcə yetmisən hələ on üçə,
Başından cavanlıq havası keçə.
Gözlərin yaxşını-yamanı seçə,
Əhdində, sözündə etibar görüm.

Tanrıdan diləräm ömrüm uzansın,
Karvanım ləngisin, bir az dayansın.
Toy çıraqlarınız gün kimi yansın,
Yanında nazənin bir nigar görüm.

Təriflərin gəlsin elindən sənin,
Baban da düşməsin dilindən sənin.
Möcüzələr çıxsın əlindən sənin,
Mən səni bir böyük sənətkar görüm.

15 oktyabr, 1998

## TOĞRULUN AD GÜNÜNƏ

Əli uğurlu balam,
Kamalı nurlu balam.
Ağ saçlı babası tək
Bir dağ qürurlu balam.

Mübarəkdir ad günün,
Xoşbəxt günün, şad günün.
Ucal, boya-başa çat,
Yetişsin murad günün.

Keç hər cür imtahandan,
Sənə baş əysin cahan.
Əzizləsin adını
Həm yer, həm də asiman.

İnanıram, gələcək
Dağ çapan Fərhad günün.
Mübarəkdir ad günün,
Xoşbəxt günün, şad günün.

15 oktyabr, 2001.

## ORTANCIL

*(Toğrulun ad gününə)*

Üç nəvəmin ortancılı Toğrulum,
Ucalasan, uca Qoşqar olasan!
Ata, ana, qardaş qədri biləsən,
Dövran sürüb, ömrü bahar olasan.

Evimizə od gətirir nəfəsin,
Gül qoxuyur şirin sözün, xoş səsin.
İş gördükcə cuşə gəlir həvəsin,
Adlı-sanlı bir sənətkar olasan.

Bəsdir demə elmin kamal payına,
Qoyma gözdən bircə söz də yayına.
Yetişəsən qohum-qardaş hayına,
Dar ayaqda yanında var olasan.

Əməlindən şöhrət gələ nəslinə,
Güvənəsən öz kökünə, əslinə.
Kərəm olsan, qovuşasan Əslinə,
Bir gözələ vəfalı yar olasan.

Ad günündə qurban olum adına,
Ömrün boyu Tanrı yetsin dadına.
Yüz yaşında babanı sal yadına,
Onun kimi saçları qar olasan.

15.10.1999.

## ŞAİQİN BİR YAŞINA

Şaiq bala, mübarəkdir bir yaşın,
Nənə qurban, baba qurban adına!
Sən üçüncü çırağısan bir eşqin,
Atan, anan nələr yanmış oduna!..

Yeri, yüyür, tappır-tuppur addım at,
Dil aç, quzum, səninkidir bu həyat!
Sən şair ol, ilhama yet, kama çat,
Dar ayaqda haqq yetişsin dadına!

Həmdəm olsan sən də qələm-kağıza,
Nəğmələrin düşsün dilə, ağıza.
Söz qoşanda bir gəlinə, bir qıza,
Torpaq olmuş babanı sal yadına.

4 noyabr, 1988

## NƏVƏM ŞAİQİN AD GÜNÜNƏ

Şaiq balam, yeddi yaşın mübarək,
Zirvələrə ucalasan sən gərək!
Şair bəxti yazıb sənə mələklər,
Söz mülkünə hakim ol öz babantək.

Mənim təki qocalsan da söz üstə,
Ayaqyalın yerisən də köz üstə.
Söz eşqindən usanmasın ürəyin,
Təzə iz aç, qalma köhnə iz üstə.

Yaxşılıqdan, gözəllikdən ilham al,
Eşqin tərlan oylağında qanad çal.
Qocalmışam, yıxır məni köhlənim,
Sən min onu, səninkidir istiqbal!

4.11.1994.

## QIZIMIN SONBEŞİYİ

*(Şaiqin ad günündə)*

Bir ocağın sonbeşiyi,
Qızımın tərlan balası.
Kimdir Şaiqin yanında
Xan oğlu, sultan balası.

Qurban gözündə gülüşə,
Boy ata, bərkiyə, bişə.
Mənim nəvəmlə döş-döşə
Gələrmi aslan balası?!

Babanı yamanca öyür,
Yaraşır dilinə şer.
Sözümü nə şirin deyir
Şirin-şəkər can balası.

Çıxmaz Daşqının sözündən,
Öpər Toğrulun gözündən.
Söz də qoşar öz-özündən
Baxtımın oğlan balası.

Dağlar çapar, yollar açar,
Gəlişindən duman qaçar.
Dünyaya bir şəfəq saçar
Bu Azərbaycan balası.

26.10.1998.

## ŞAİQİN DİLİNDƏN

Mən sadəcə bir məktəbli deyiləm,
Mən şairəm, babam qoyub adımı.
Misralarım şimşək kimi çaxanda
Duyarsınız alovumu, odumu.

Nənələrim bu bağçada qoşadır,
Hər birisi bəydir, xandır, paşadır.
Babanı da xoş sözləri yaşadır,
Onlar qovar qəm adlı bir ordunu.

Haqq böyüdər taledən nur əməni,
Oylağımdır bu Novxanı gülşəni.
Babam çəmən, mən hələ bir səməni,
Unutmaram şerin şəkər dadını.

Söz dəryadır, qəvvas olmaq gərəkdir,
Dalğa-dalğa coşub dolmaq gərəkdir.
Bu dünyadan ilham almaq gərəkdir,
Keçmək gərək dərdlisini, şadını.

Bir iz qoyaq gərək dünya üzündə,
Əsrar gərək hər addımın izində.
Mələyi var, şeytanı var sözün də,
Tanıyıram doğmasını, yadını.

İstərəm ki, babam çıxa səksənə,
İstəmərəm ölüm deyib səksənə.
Baba, dərdə daha bir xətt çəksənə,
Sən həkim say nənəm kimi qadını,
Adı bəlli Şeyx Əyyub övladını.

10 iyul, 2002.
Novxanı.

## ŞAİQİN AD GÜNÜNƏ

Şair olsan babanı şerinə ustad eylə,
Bərbad olmuş sözünü şövq ilə abad eylə.

Dedi ustad Füzuli: sözümüzdür canımız,
Ona bir loğman olub dərdinə imdad eylə.

Şahə qalxsın Qıratın, nur ilə dolsun qəbrim,
Oyadıb ruhumu da şerin ilə şad eylə.

Yenə ilham quşunu saldı tora kəc dünya,
Atını meydana sür, od saçıb azad eylə.

Qoy desinlər ki, bu Kürdoğlu soyu möcüzədir,
Vecsiz adları batır, sən təzə bir ad eylə.

4.11.1990

## ŞAİR BABANIN ZARAFATLARI

### Daşqın

Mən Daşqınam, sellər kimi daşaram,
Uca-uca qayalardan aşaram.
Ancaq imla yazdıranda müəllim,
«Sağ ol»u da «sax ol» yazıb çaşaram.

### Toğrul

Mən Toğrulam, hər bir şeyi bilirəm,
Öz dərsini bilməyənə gülürəm.
Evimizdə ata bir iş görəndə,
Deməmişdən köməyinə gəlirəm.

### Şaiq

Mən Şaiqəm, boz qurd kimi qorxmazam,
Qoç Nəbiyəm, Koroğluyam, Eyvazam.
İstəyirəm heç məktəbə getməmiş,
Özüm üçün həm oxuyam, həm yazam.

## Süsən

Mən Süsənəm, sizi sevib öyərəm,
Siz yatanda şirin layla deyərəm.
Hirsləndirib baxmasanız sözümə,
Bir çubuqla şarap-şurup döyərəm.

3 noyabr, 1992

## ÇİNARƏM

Mənim nəvəm körpə çinar tingisi,
Boy atacaq budaq-budaq Çinarəm.
Ayaq açıb sinəm üstə yerisin,
Gözüm üstə qoysun ayaq Çinarəm.

Şirin-şirin, nazlı-nazlı dil açar,
Yaz günüdür, pəncərəmdən tül açar.
Arzularım qönçələnər, gül açar,
Gülşənimə təzə bulaq Çinarəm.

Haqq eşitdi dilimdəki diləyi,
Hər zavaldan qorudu bu çiçəyi.
Andıracaq bir qənirsiz mələyi
Götürəndə güzgü-daraq Çinarəm.

Şükr Allaha, gəlib çatdı bir yaşı,
Ömrümüzün yaraşığı, daş-qaşı.
Nənəsinin mənimlədir savaşı:
Qaraşındır, yoxsa ki, ağ Çinarəm?

Qurban kəsim yüyürəndə-qaçanda,
Ərsələnib bir gün qanad açanda.
Bəxt üzüyü barmağını qucanda
Babasını görəydi sağ Çinarəm,
Nənəsini görəydi sağ Çinarəm.

7.03.1992

## ÇİNARƏ BALAMIN AD GÜNÜNƏ

Şirin-şirin dil aç, xoş avaz gətir,
Oyna, evimizə işvə-naz gətir.
Mənim iki yaşlı Çinar budağım,
Babanın ömrünə təzə yaz gətir!

7.03.1993

## ÇİNARƏNİN DÖRD YAŞI

Qapqaradır göz-qaşım,
Yoxdur tayım, yoldaşım.
Məndən gözəl qız varmı,
Varsa gəlsin, dalaşım.
Mən balaca deyiləm,
Dörd yaşım var, dörd yaşım:
Bir, iki, üç, dörd!

Babam yazıb: ağ Aytən,
Aytəndən şirinəm mən.
Mənə naznazım deyir
O qəşəng bibim Süsən.
Oxumaq bilməsəm də,
Hər şeydən çıxır başım,
Dörd yaşım var, dörd yaşım:
Bir, iki, üç, dörd!

Nənəm mənə can deyir,
Gözünə qurban deyir.
Heç bir yanda tapılmaz
Sən təki ceyran deyir.
Barmağımı saydırır,
Sayanda qoymur çaşım,
Dörd yaşım var, dörd yaşım:
Bir, iki, üç, dörd!

İstərəm tez boy atam,
Yekə qızlara çatam.
Gözləyirəm, yatmıram,
Yaman gec gəlir atam.
Atamın bu işindən
Mənim də gəlmir xoşum.
Dörd yaşım var, dörd yaşım:
Bir, iki, üç, dörd!

Deyir əl vurma qaba,
Cızıq çəkmə kitaba!
Anam ağladır məni,
Hamısını deyərəm
Bizə gələndə baba.
Hanı mənim kitabım,
Dəftərim, karandaşım,
Qulaq asın, eşidin,
Dörd yaşım var, dörd yaşım:
Bir, iki, üç, dörd!
Bildiniz?!

9.03.1995

## ALIŞAN YURDUNUN ÇİNARƏSİYƏM

Çinar tingisiyəm, yarpaq açmışam,
Alışan yurdunun Çinarəsiyəm.
Şair ocağında ayaq açmışam,
Babanın mən şer səyyarəsiyəm.
Durub təbrik yazır yeddi yaşıma,
Nənəm də qoğalla gəlir qarşıma.
Mənim ad günümdə çalın-oynayın,
Qəminiz olsa da, qəmgin olmayın,
Şirin gülüşümlə qəm çarəsiyəm,
Alışan yurdunun Çinarəsiyəm.

8 mart, 1998

## DƏRS OXUYUR ÇİNARƏ

Göydə şimşək çaxmasın,
Sellər-sular axmasın.
Quşlar qonub ağaca,
Pəncərədən baxmasın,
Dərs oxuyur Çinarə.

Ey külək, astadan əs,
Nədir səndə bu həvəs?
Neçə tapşırığı var,
Zəng eləməsin heç kəs,
Dərs oxuyur Çinarə.

Aytən də səs salmasın,
Bir söz xəbər almasın.
Televizor, radio
Oxumasın, çalmasın,
Dərs oxuyur Çinarə.

Qoy tanısın dünyanı,
Bilsin yaxşı, yamanı.
Sevindirir nənəni,
Sevindirir babanı.
Dərs oxuyur Çinarə,
Dərs oxuyur Çinarə.

9 mart, 1999

## ÇİNARƏNİN AD GÜNÜ

Hər ad günü gələndə könlümdən gül dərmişəm,
Nəvəli günlərimlə gör nə bəxtəvərmişəm.
Gözəl-göyçək balama mən özüm ad vermişəm,
Başım ucadır bu gün xan çinarla yanaşı,
Mübarəkdir, mübarək Çinarənin on yaşı!

Kitab-kitab öyrənir dünyanın hər üzünü,
Öyrənir ruzigarın əyrisini, düzünü.
Yoluna çıraq tutur dahilərin sözünü,
Sevincimdən şerimə damır gözümün yaşı,
Mübarəkdir, mübarək Çinarənin on yaşı!

Yaradan uzadaydı ömrümü kaş onca il,
Laçın azad olaydı, qurtaraydı bu nisgil.
Çinarə bülbül kimi orda ötəydi dil-dil,
Dilindən saçılaydı şerin zəfər daş-qaşı,
Mübarəkdir, mübarək Çinarənin on yaşı!

Haqq özü əzizləsin Çinarəylə Aytəni,
Zəmanə də ucaldar halal kökdən bitəni.
Unutmasın babanı, el-obanı, vətəni,
Hər sevgi qızıl üzük, övlad da yaqut daşı,
Mübarəkdir, mübarək Çinarənin on yaşı!

8 mart, 2001

## ÇİNARƏNİN ON BİR YAŞI

Çinarəmin on bir yaşı mübarək,
Sağ olaydım iyirmi bir olanda.
Bir çeşmədir göz işığı hər nəvəm,
Könlüm coşar çeşmələr Kür olanda.

Gözəl balam halal ocaq övladı,
Həm özü bir şirin nəğmə, həm adı.
Deyəcəklər babasıymış ustadı,
Kamalı nur, sözləri dürr olanda.

Ot basmağa qoymayacaq izimi,
İncidəndir hər şerimin düzümü.
Dərin-dərin duyacaqdır sözümü
Ayla, günlə bir vaxt həmsirr olanda.

Bəlkə o da sənətdə bir iz açar,
Açılmayan düyünləri tez açar.
Məndən gələn nəsillərə söz açar
Babasının məzarı pir olanda.

Aytənimlə hər birisi bir mələk,
Boy atsınlar qoşa qalxan budaqtək.
Çinarəmin on bir yaşı mübarək,
Sağ olaydım iyirmi bir olanda,
İncə boyu məndən hündür olanda.

5.03.2002

## 12 YAŞLI ÇİNARƏM

12 budaqlı Çinarəm mənim,
Artsın budaqların min birə çatsın.
Səni əzizləsin, sevsin Aytənim,
Günbəgün ucalıb şöhrətin artsın,
Uçulub çöksə də ömür minarəm,
Unutma babanı, gözəl Çinarəm.

17 mart, 2003

## AYAQ AÇIR AĞ AYTƏNİM

Ayaq açır ağ Aytənim,
Gözləri çıraq Aytənim.
Nənəsinə, babasına
Gələcək qonaq Aytənim,
Ayaq açır ağ Aytənim.

Gülüşləri könül açar,
Göyərib arzum gül açar.
Yıxıla-dura dil açar
Bu qönçədodaq Aytənim,
Ayaq açır ağ Aytənim.

Evimizə işıq salar,
Telləri sarıya çalar.
Qızıl güldən ətir alar,
Lalədən yanaq Aytənim,
Ayaq açır ağ Aytənim.

Çinarəm qarabuğdayı,
Yer üzündə yoxdur tayı.
Hər ikisi Tanrı payı,
Oynağan, şıltaq Aytənim,
Ayaq açır ağ Aytənim.

Qəşəngdir Süsənim təki,
Xoşbəxt varmı mənim təki?
Nəvəm olsun mənim təki,
Dupduru bulaq Aytənim,
Ayaq açır ağ Aytənim.

Səsi birdən zilə çıxır,
Hey çığırır çığır-çığır.
Ağcanı boğaza yığır,
İstəmir qucaq Aytənim,
Ayaq açır ağ Aytənim.

Yekəlsin, gəzsin hər yanı,
İlhamın quzu ceyranı.
Bir gün deyər babam hanı,
Görməz məni sağ Aytənim,
Ayaq açır ağ Aytənim.

22.01.1995

## AYTƏN BALAMIN DÖRD YAŞI

Mübarək olsun dörd yaşı,
Mənə çay süzür Aytənim.

Çalıram qarğı tütəyi,
Ortada süzür Aytənim.

Evdə dörd tərəfə çapır,
Çinarədən bir şey qapır.
Sancağı-muncuğu tapır,
Saçına düzür Aytənim.

Kuklasını geyindirir,
Soyundurur, yuyundurur.
Danışdırır, deyindirir,
Ağcanı üzür Aytənim.

Bu qaraqaş, bu qaragöz
Ağlayanda səsinə döz!
Eşitsə bir acıqlı söz,
Ağzını büzür Aytənim.

Bir bax saçını hörəndə,
Dəsmalı yuyub sərəndə.
Küçədə qoca görəndə,
Babanı gəzir Aytənim.

13.11.1997.

## ÇİNARƏNİN AY BACISI

*(Aytənin ad gününə)*

Çinarənin ay bacısı,
Ağ çiçəkdir Aytənimiz.
Nə gözəldir, nə qəşəngdir,
Nə göyçəkdir Aytənimiz!

Kündə yayıb kəsməyi var,
Hərdən coşub əsməyi var.

İnciməyi, küsməyi var,
Çox kövrəkdir Aytənimiz.

Nə desən yadında qalır,
Böyükləri başa salır.
Kuklasına layla çalır,
Bir mələkdir Aytənimiz.

Beş yaşında yazı yazır,
Məktəbə indidən hazır.
Çətin tapmacalar yozur,
Görəcəkdir Aytənimiz.

Təzə don geyər əyninə,
Ağcanı almaz eyninə.
Qonar İlhamın çiyninə,
Kəpənəkdir Aytənimiz.

Qoy gəlsin, öpüm gözündən,
O üzündən, bu üzündən.
Babasının xoş sözündən
Güləcəkdir Aytənimiz.

Nə gözəldir Aytənimiz,
Nə göyçəkdir Aytənimiz!

13.11.1998.

## AYTƏNİM

*(Ad günündə)*

Şer söylə, gözəl balam,
Ad günündə xoşiqbalam.
Baxıb gülər gözlərinə,

Nəğmə yazım, tütək çalım,
Gələrmi xoşun, Aytənim,
Altıdır yaşın, Aytənim!

Şerimdədir gül nəfəsin,
Məktəbə çoxdur həvəsin.
Səslərə qoşular səsin,
Dəftər, qələm, bir də kitab
Dostun-yoldaşın, Aytənim,
Altıdır yaşın, Aytənim!

Oxu, öyrən, kamala çat,
Kitabdan başlanır həyat.
Baban kimi yazıb yarat,
Heyran olsun aləm sənə,
Ucalsın başın, Aytənim,
Altıdır yaşın, Aytənim!

9.11.1999.

## AYTƏNİN YEDDİ YAŞI VAR

Hamınız mübarək deyin,
Düz yeddi yaşım var mənim!
Dəftər, qələm, kitab kimi
Dostum-yoldaşım var mənim,
Düz yeddi yaşım var mənim!

Töhfələr gətirib nənə,
Öpdü məni dönə-dönə.
Babam şer yazıb yenə,
Gör nə daşqaşım var mənim,
Düz yeddi yaşım var mənim!

Məktəb çağırıb gəl deyir,
Oxu, öyrən, yüksəl deyir.

Əlaçıya gözəl deyir,
Bu sözə xoşum var mənim.
Hamınız mübarək deyin,
Düz yeddi yaşım var mənim!

12.11.2000

## AYTƏNİM

Ay mənim şirincə nəvəm,
Çiçəyim-gülüm — Aytənim!
Gəlmişəm ad gününə mən,
Sevinim, gülüm, Aytənim,
Çiçəyim-gülüm — Aytənim!

İpək telin burum-burum,
Alnımda könül qürurum.
Gözüm giləsində nurum,
Ağzımda dilim, Aytənim,
Çiçəyim-gülüm — Aytənim!

Sən oyna, mən çalım çapan,
Sevinci ruhuma hopan.
Günün şöləsindən qopan
Qızıl sünbülüm, Aytənim,
Çiçəyim-gülüm — Aytənim!

Yetişib doqquza yaşın,
Kitablar dostun-sirdaşın.
Elm ilə ucalsın başın,
Fərəhimdən şerə dönsün
Hər ayım, ilim, Aytənim,
Çiçəyim-gülüm — Aytənim!

13.11.2002

## AFAQ DİL AÇDI

Təzə dil açan balam,
Açılmış bir gül oldun.
Qollarımın üstündə
Körpəcə bülbül oldun.

Gözmuncuqlu quzusan,
Baxtımın ulduzusan.
Dən tutmuş bir arzusan,
Ömrümə sünbül oldun.

Göy otluqda itirsən,
Qaçıb mənə yetirsən.
Bıldır-bıldır ötürsən,
Necə şirindil oldun!

## QARDAŞ BALALARI AFAQA VƏ AYSELƏ 8 MART TƏBRİKİ

### Afaq

Yoxdur oxuduğu kitabın sayı,
Axtarsan tapılmaz Afaqın tayı.
Oxuyur, gecəni gündüzə qatır,
Bəzən oxuduğu kitabla yatır.
Ay düşür, gün düşür pəncərəsindən,
Saçında darayır günəşi, ayı,
Varmı bu dünyada Afaqın tayı?!

### Aysel

Gül nədir, güllərdən əzəldir Aysel,
Hər şeyi zövq ilə düzəldir Aysel.
İpək tellərini tökür çiyninə,

Gündən də, aydan da gözəldir Aysel,
Öyməsin özünü bənövşə, nərgiz,
Hər güldən-çiçəkdən əzəldir Aysel!

8.03.1996.

## AY PARÇASI

*(Qardaş balası Şahanəmizə)*

Uyuyur beşikdə bir ay parçası,
İlahi qisməti Şahanə gözəl.
Gözəllik eşqindən iki diyarın
Yarandı təzə bir nişanə gözəl.

Üç güldür bu evin fəxri, sevinci,
Açıldı qönçədən Afaq birinci.
Aysel bir yaqutdur, Afaq bir inci,
Bu göyçək bala da dürdanə gözəl.

Saçı bulud olar, gözləri ulduz,
Ay da gec görəndə qəm çəkər onsuz.
Böyüyər, boy atar, deyəllər bu qız,
Əfsanə gözəldir, əfsanə gözəl.

Körpə gülən yerdən uzaq düşər qəm,
Yuxuda süd görüb, qımışır hər dəm.
Belə incə fidan görməyib aləm,
Bəlkə elə budur yeganə gözəl.

Gülə, cəh-cəh vura, görməyə gələm,
İndi gələmmirəm, ağırdır şələm.
Ayrısı deməsin mən də gözələm,
Şahanədən qeyri daha nə gözəl?!
Uyuyur beşikdə Şahanə gözəl.

7.11.1996

## MEHMAN

Mən Mehmanam, Mehmanam,
On üç yaşlı aslanam.
Kefimə dəyməsələr
Hamıya mehribanam.

Əzizdir Ceyran nənəm,
Gözünün nuru mənəm.
O dumduru bulaqdır,
Mən çiçəkli çəmənəm.

Bir odlu şimşəyəm mən,
Yurduma gərəyəm mən.
Həm ovxarlı qılıncam,
Həm də ki, ipəyəm mən.

## CEYRAN

*(Əfqanın şirin-şəkər qızına)*

Ceyran nənəsinin qəşəng balası,
Bir qoşa bulaqdır gözü Ceyranın.
Laçın dağlarının beçə balıdır,
Körpəcə dilində sözü Ceyranın.

Zəfər sevincimiz daşaydı bir gün,
El köçü Turşsudan aşaydı bir gün.
Qatarın döşünə düşəydi bir gün,
Şehli çiçəklərdə izi Ceyranın.

Baxma ki, hər ömrün bir xəzanı var,
Övladdır hər kəsin eşqinə bahar.
Baxtına səadət gün kimi doğar,
Ay kimi bədr olar üzü Ceyranın.

Qalmaya yağıdan bir iz, bir nişan,
Bağça bar gətirə, arılar da şan.
O sönmüş ocağı yandıra Əfqan,
Çağıra yaşına bizi Ceyranın.

Atanın, ananın ömrünü bəzər,
Qızların içində mələyə bənzər.
Bir zaman şerimi söyləyər əzbər,
Doluxar gözləri quzu Ceyranın.

20.04.1995

## MƏN ELVİNƏM

*(Əlibala babanın
və Tünzalə nənənin nəvəsinə)*

Mən Elvinəm, Elvinəm,
Ulduzam, ayam, günəm.
Gedirəm babamgilə,
Orda araba minəm.

Orda havarcağım var,
Gözəl bağça-bağım var.
Babam, nənəm sağ olsun,
Neçə oyuncağım var.

Tünzalə – gözəl nənəm,
Bir dənəmdir, bir dənəm.
Dilində şirin sözü,
Üzündə gülüş mənəm.

Gedirəm babamgilə,
Gəlirəm gülə-gülə.
Nənəm oxşadır məni,
Cəh-cəh vuran bülbülə.

Mən Elvinəm, Elvinəm,
Sözlə doludur sinəm.
İstərəm tez yekələm,
Bir yekə maşın minəm.

## ŞEİRSEVƏN BALACA DOSTLARIMA

1

Vətən bizə günəş ana, ay ana,
Sən vətənə yaraşıqsan, ay ana.
Şair baba mənə kitab göndərib,
O Kürdoğlu, mən balaca Ayana.

2

Rənayam mən – güləm mən,
Saçları sünbüləm mən.
Bu kitabı oxuyan
Bir xoşbəxt bülbüləm mən.

3

Elnuram – el nuruyam,
Anamın qüruruyam.
Kürdoğlu şeri kimi
Qəlbi, gözü duruyam.

4

Şeir sevən Rasiməm,
Xoş xəbərli nəsiməm.
O Kürdoğlu baba da
Bir gün bilər mən kiməm.

5

Səxavətəm, Səxavət,
Sözdür ən şirin nemət.
Ürəyimdə heç zaman
Sönməz şerə məhəbbət.

6

Hüseynəm, şairin adaşıyam mən,
Neçə nəvəsinin yoldaşıyam mən.
Babanın ürəyi sözündə çarpır,
Sözünü sevənəm, sirdaşıyam mən.

7

Atamın, anamın Vüqarı mənəm,
Çiçəyi solmayan baharı mənəm.
Kürdoğlu babanın sözləri kimi
Şirin arzuların nübarı mənəm.

8

Mən Kamalam, çiçək açar kamalım,
Oxumaqdır, öyrənməkdir amalım.
Nə gözəldir Kürdoğlunun kitabı,
Gərək onun hər sözündən kam alım.

## SİZƏ QURBAN OLUM MƏN

*Fəridə nənənin dilindən*

Qoca bar ağacıyam, nəvələr çiçəklərim,
Dalaşqan dəcəllərin, oynağan göyçəklərim.
Dupduru gözlərində sayrışır diləklərim,
Topbul ağ əllər ilə dartılır ətəklərim.
Gör kimdir dörd yanımda belə bülbül tək ötən:

Afaq, Aysel, Çinarə, Daşqın, Toğrul və Şaiq,
Bir də balaca Aytən.

Daşqın fırça götürüb çəkir mavi dənizi,
Toğrul ev quraşdırır, toz-torpaq olub dizi.
Aysel piano çalır, gülümsəyir gül üzü,
Afaq kitab oxuyur, tez-tez deyir bu sözü:
«Əzizdir gözəl ana, əzizdir gözəl vətən!»
Ona səs verir Aysel, Daşqın, Toğrul, Çinarə,
Bir də balaca Aytən.

Uca dağlarımızdan qaçar qanlı yağılar,
Zəfər bayrağımızdan gözəl günlər doğular.
Yenə də kəndimizdə qızıl naxır sağılar,
Bulaqların başına qız-gəlinlər yığılar,
Səsləyər uşaqları ağ şəlalə, göy çəmən,
Qaçar çəmən boyunca Afaq, Aysel, Çinarə,
Daşqın, Toğrul və Şaiq,
Bir də balaca Aytən.

Uşaqların and yeri şəhidlərin məzarı,
Ah, bu qanlı savaşlar yetəydi sona barı.
Yandırmasın alovlar pöhrə-pöhrə çinarı.
Nağıl qəhrəmanı tək tez ucaltsın onları.
Bağımızda şirin bar, tarlamızda qızıl dən,
Danışıram dinləyir, Afaq, Aysel, Çinarə,
Bir də balaca Aytən.

Gül balalar, boy atın, qəhrəman əsgər olun,
Həcər kimi yenilməz, Nəbi təki nər olun.
Gələn azad günlərə günəşli əsgər olun,
Bütün tay-tuşunuzla sizə qurban olum mən:
Afaq, Aysel, Çinarə, Daşqın, Toğrul və Şaiq,
Bir də balaca Aytən!

1996

# QUZULAR DAĞA ÇIXDI

***(Poema)***

*Oğlum İlhama*

Ay bəxtəvər uşaqlar,
Nəğməsevər uşaqlar!
Bu dağlara söz qoşan
Sinədəftər uşaqlar!

Tütəyim var, sazım var,
Xoş səsim, avazım var.
Kölgəliyə toplaşın,
Sizə çoxlu sözüm var.

Mən bir quzu çobanı,
Dağın, daşın sultanı.
Ad qazanıb almışam,
Döşümdəki nişanı.

Çay keçib dağ aşmışam,
Quzuya söz qoşmuşam.
Qulaq asın oxuyum,
Aşıq kimi coşmuşam.

Quzular dağa çıxdı.
Yaşıl yaylağa çıxdı.
Lalə də qönçəsindən
Döndü bayrağa, çıxdı.

Quzular dəstə-dəstə,
Axışar dağlar üstə.
Anasını səsləyər,
Gəzər, qulağı səsdə.

Quzum qatarla gələr,
Obaya sarı mələr.
Anasının iyini
Mehdən, küləkdən bilər.

Quzum örüşə gedər,
Sanki yürüşə gedər.
Arxacda anasıyla
Hər gün görüşə gedər.

Qoruqda otlar quzum,
Az qala çatlar quzum.
Anasını əməndə
Dizini qatlar quzum.

Quzum əmişən çağı,
Yağış islatdı dağı.
Bulud keçdi, gün çıxdı,
Göründü göy qurşağı.

Sürü – çəmən naxışı,
Düzümü də nə yaxşı!
Maral baxışlarıdır
Quzuların baxışı.

Baxın dağ üstə düzə,
Otu qalxıbdır dizə.
Qərq olub ağ sürülər
Bu yamyaşıl dənizə.

Quzum aşar dağları,
Yorulmaz ayaqları.
Yollara naxış vurar
Şirmayı dırnaqları.

Körpə quzum südəmər,
Yumşaq tükləri məxmər.
Ovcuma kəllə vurar,
Döyüşmək də öyrənər.

Çay səsi laylay olar,
Haray olar, hay olar.
Quzular səf tutanda
Sürü də bir çay olar.

Sürü gədikdən aşar,
Güneylərə yaraşar.
Göyə qalxar torağay,
Quzuma nəğmə qoşar.

Mələşər döşdə sürü,
Duz yalar daşda sürü.
Çoxdur yonca tayamız,
Qəm çəkməz qışda sürü.

Quzumun gözü qəşəng,
Çəməndə izi qəşəng.
Qışda çovğuna düşməz,
Qışlaqda küzü qəşəng.

Quzular ekiz olsun,
Sayı hər vaxt düz olsun.
Çobanı qəhrəmandır,
Çoxalsın, yüz-yüz olsun.

Quzumu saydım özüm,
Sayğac – barmağım, gözüm.
Dəlidağın boynunda
Ağ sürü düzüm-düzüm!..

Bir quzum alakərə,
O biri qarakürə.
Əsmər, əbrəş, bənöyüş…
Görməyən gələ görə.

Dağlardan enər sürü,
Seçmə, dənəvər sürü.
Yalda tütək çalaram,
Geriyə dönər sürü.

Xoruzun axır banı,
Durar quzu çobanı.
Sürünü yığıb gedər
Saya salmaz dumanı.

Dağ yuxudan ayılar,
Sürü dağa yayılar.
Qorxar, yaxına gəlməz,
Donquldanar ayılar.

Sürü yanaşdı gölə,
Neçin hürküşdü belə?
Suda qurd şəkli varmış,
Pusqudaymış qurd lələ.

Qurd məni gördü, çaşdı,
Sərpdi, mayallaq aşdı.
Tez nişan aldım onu,
Tüfəngim alov saçdı.

Boğazı müçəmlidir,
Kirpikləri nəmlidir.
Anasını qurd yeyib,
Səkil quzu qəmlidir.

Yanımda xallı Bənək,
Çiynimdə dolu tüfəng.
Ağzıqara canavar
Yaxına gəlsin görək.

Quzular ceyran kimi,
Dişləri mərcan kimi.
Boynu qıllı Bənək də
Zorbadır aslan kimi.

Haya hay verən çoban,
Təkə tay verən çoban.
Gərək çoban olmasın
Qurda pay verən çoban.

Çıxın dağlar başına,
Qayasına, daşına.
Baxın oba yanında
Quzuqırxan maşina.

Xoşdur çoban həyatı,
Toy-düyünü, büsatı.
Radioda çalınır
Yenə «Çoban-bayatı».

Adımız-sanımız var,
Hünər dastanımız var.
Çadır kitabxanamız,
Maşın dükanımız var.

Qayalar aya baxar,
Ulduzlu çaya baxar.
Qayanın ekranında
Çoban kinoya baxar.

Səs düşür dağa-daşa,
Alqışa bax, alqışa!
Yenə məxmər çəməndə
Tamaşa var, tamaşa!

Dağların tilsimi var,
Biz olmasaq kimi var?
Hər çoban binəsinin
Qayğıkeş həkimi var.

Göylər bir gün mələdi,
Dağları silkələdi.
Buludlar dolu tökdü,
Yay günü qar elədi.

Uçdu alaçıq, dəyə,
Tab etmədi küləyə.
Vertolyot endi göydən,
Tez yetişdi köməyə.

Çıraq oldu gözümüz,
Polad oldu dizimiz.
Bir əmlik də vermədik
Borana, çovğuna biz.

***

Ay quzum, sürü quzum,
Sallanıb yeri, quzum.
Çoxal yaz dumanıtək,
Dağları bürü, quzum.

Ay quzum, nazlı quzum,
Boynu qotazlı quzum.
Anan yadına düşüb,
Baxışı sözlü quzum?!

Ay quzum, körpə quzum,
Dırmanma sərpə, quzum!
Qorxuram sal qayada
Dırnağın sərpə, quzum!

Ay quzum, əmlik quzum,
Balaca əlik quzum.
Ananı səsləməkdən
Olmusan ləlik, quzum!

Ay quzum, təpəl quzum,
Bir yanıma gəl, quzum.
Nə çox oyun bilirsən,
Qaçağan, dəcəl quzum?!

Ay quzum, qumral quzum,
Boğazı xal-xal quzum.
Ac olanda haraylı,
Tox olanda lal quzum.

Ay quzum, yekə quzum,
Quyruğu kökə quzum.
Səni balaca vaxtı
Bükmüşdüm kürkə, quzum!

Qara quzum, ağ quzum,
Gözləri çıraq quzum.
Bir gün sənsiz olmasın
Bu dərə, bu dağ, quzum!

Mor quzum, sarı quzum,
Kəndimin varı quzum.
Halalca zəhmətimin
Şirincə barı quzum.

***

Dağlar, düzülü dağlar,
Qoyun-quzulu dağlar.
Yay vaxtı göy sinəsi
Qarla yazılı dağlar.

Don geymiş məxmər otdan,
Tər yoncadan, tər otdan.
Quzuma pay saxlamış
Hər çiçəkdən, hər otdan.

Yurd yerimiz yastana,
Ağ çadırlar yan-yana.
Dəlidağ da bənzəyir
Ağ papaqlı çobana.

Dağın yüz nağılı var,
Ulduzdan noğulu var.
Çadırların yanında
Quzumun ağılı var.

Günəş qalxır, şaxıyır,
Ağ çeşmələr oxuyur.
Quzumun ipək yunu
Çəmən ətri qoxuyur.

Günəş gözünü yumur,
Ay ondan işıq umur.
Quzum ay işığında
Otlayır xımır-xımır.

Qatarından üzülər,
Topalanar, büzülər.
Bərk sarınan yumaqdır –
İsti gündə quzular.

Yuxusu dərin qaya,
Suları şirin qaya.
Sürülər sığnağıdır
Kölgəsi sərin qaya.

Duman qalxıb sürünər,
Tez getməyə ərinər.
Sürünün şəkli düşər,
Göllər ala görünər.

Quzum dağa yol eylər,
Cığırı qol-qol eylər.
Duman çökər yaylağa,
Göy otları bol eylər.

Bulud – dağların tacı,
Göylər ulduz arxacı.
Açılar şimşək kimi
Quzuçunun qırmacı.

Yamaca kölgə düşdü,
Güneydən kəklik uçdu.
Dovşanı tutdu qartal,
Sürü qaçdı, nə qaçdı…

Dağın ətəyi qırçın,
Zirvədən uçar laçın.
Qonar quzu belinə,
Nağıl deyər sığırçın.

Quzumun gözü göyçək,
Xalları çiçək-çiçək.
Bu yaylaq saralanda
Təzə yaylağa köçək.

Çıxdı yaylağa quzum,
Bələndi yağa quzum.
Gələn il şişək olar,
Qayıdar dağa quzum.

***

Sağ olun, ay uşaqlar,
Alay-alay uşaqlar.
Nağıldan da gözəldir
Bu dağ, bu çay, uşaqlar!

Mən də yığım quzunu,
Bu dərələr uzunu.
Sizə sovqat gətirim
Bir parça dağ buzunu.

Tərtərin qırağında,
Bu Cüyür bulağında.
Yenə nəğmə deyərik,
Bir günorta çağında.

1973

## MÜNDƏRİCAT

*VƏTƏN SİNƏMİZDƏ ÜRƏYİMİZDİR*


Vətən..........................................................................5
Günəş ..........................................................................5
Balaca rəssam..............................................................6
Son zəng.......................................................................7
Məktəblilər şərqisi.......................................................7
Müəllim.........................................................................8
Təzə ilim .......................................................................9
Bizim məktəb..............................................................10
Kəsilib yolu dağların...................................................10
Şaiq baba ....................................................................11
Uğurla gəl...................................................................12
Ayselin sualları...........................................................13
Qar yağır.....................................................................13
Afaqın arzusu .............................................................14
Dədə saz......................................................................15
Bayramın mübarək, ana .............................................16
Daşqının dilindən şerlər .............................................17
Birincilərin on birinciləri təbriki................................17
Otuz iki qardaş ...........................................................19
Anam ..........................................................................25
Xocalı .........................................................................26
Şəhidlər.......................................................................26
Müəllim günü.............................................................27
Rəna müəlliməyə........................................................28
Yoldan ötərkən............................................................28
Sərhəd ........................................................................29
Atalar..........................................................................30
Yaralı yatır Həcər .......................................................31
Kənd muzeyində .........................................................33


*AYTƏNƏ ŞEİR YAZIRAM*


Aytən və göyərçin.......................................................37
Babama konfet vermişəm............................................37
Aytən kəndə gedir.......................................................38
Kitabım, dəftərim var..................................................38

Kuklama soyuq dəyər ................................................39
Uç babamın yanına....................................................39
Mənə də yazmaq öyrət ..............................................40
Babamın yaşı............................................................40
Laçın haradır, baba...................................................41
Qar..........................................................................41
Atamı gözləyirəm ....................................................42
Qolbağımda kəpənək................................................42
Nənəmin ad günüdür................................................42
Gözləri də göy olsun................................................43
Kuklama ad qoymuşam............................................43
Nənəsi qurban olsun ................................................44
Aytənin alması .........................................................44
Nənəmə muncuq aldım............................................45
Şahnabat müəllimə...................................................45
Aytənin çantası.........................................................45
Babanın ad günündə.................................................46
Aytənin arzusu .........................................................46
Dördlük ...................................................................47
Kimi çox istəyirsən? ................................................47
Məktəbə gedir Aytən................................................48
Aytənə şeir yazıram .................................................49

*UÇAĞANIM, UÇ GÖRÜM…*

Tez get, qatar...........................................................53
Leyləyim .................................................................53
Küləyi də bağla........................................................54
Kökə məni................................................................54
Tuta-tuta...................................................................55
Mənim yeddi yaşım var............................................55
Anar.........................................................................55
Tülkü lələ.................................................................56
Çəpişlər....................................................................56
Dəvə.........................................................................57
Şir............................................................................57
Ulduzlar və kəpənəklər ............................................58
Dəniz........................................................................58
Qoğal nənə ...............................................................59
Tapmacalar...............................................................59

Tək ördək ........................................................................59
Sarı yarpaq .....................................................................60
Qara qarğa ......................................................................61
Nasirin nənəsi ..................................................................61
Xəccə nənənin nəvələri.....................................................62
Gopçular ..........................................................................62
Yalançı pəhləvan ..............................................................66
Xəccə nənə .......................................................................66
Ağac at ............................................................................67
Uçağanım .........................................................................67
Göy noğulu.......................................................................68
Anam eydirmə deyir .........................................................69
Babam .............................................................................69
Ən gözəl alma ..................................................................70
Çinar altda yatır nənəm.....................................................70
Neyləsin Fizzə nənə ..........................................................71
Nənəmin çadırında............................................................72
Xilaskar ...........................................................................72
Toplanım ..........................................................................73
Laçın və Yalçın .................................................................74
Darağım çaya düşdü..........................................................75
Atama məktub ..................................................................76
Qocalar ............................................................................76
Xoruzum...........................................................................77
Tələyə düşən tülkü ............................................................78
Gülə yaza .........................................................................78
Çalar ................................................................................79
Balaca bağban ..................................................................79
Qarışqalar .........................................................................80
Qışda ...............................................................................80

*BƏNÖVŞƏ KÜSƏYƏNDİ...*

Kəklik nəğməsi ................................................................83
Qoca qaya.........................................................................83
Balaca bulaq .....................................................................84
Cüyür................................................................................84
Ballı qaya .........................................................................85
Bənövşə küsəyəndi............................................................85
Dağa qar yağır ..................................................................86

Yaz gələndə ............................................................87
Qoşqar ..................................................................88
Qum üstü ...............................................................88
Mən dənizi görmüşəm ..............................................89
Nərdivan qaya .........................................................90
Göygölə yarpaq yağır...............................................90
Qarmağı qıran balıq.................................................91
Kənd axşamı...........................................................92
Söyüd.....................................................................93
Torağay ..................................................................93
Bal arısı .................................................................94
Qızılgül..................................................................95
Ağbulaq şəlaləsi.......................................................95
Kür yaxasında..........................................................96
Ayın aynası.............................................................97
Telli qamışlar ..........................................................97
İşıqlı......................................................................98
Qaragöl yaylağında ..................................................98
Qurdu qovarkən .......................................................99
Yüzbulaq ...............................................................100
Sarıbaba................................................................101
Həcər bulağı...........................................................102
Gəlin qaya .............................................................103
Ceyran ..................................................................104
Sarı nər .................................................................105
Xəzəl.....................................................................106
Yaz buludu ............................................................106
Yaz yağışı..............................................................107
Boyçiçəyi ..............................................................107
Anam xalça toxuyar ................................................108
Çiçəklərin yeddi bacısı............................................110
Dağın paltarı..........................................................114
Ağac əkək, gül əkək ...............................................114
Şanı.......................................................................115
Daşqın çay.............................................................116

*SİZƏ QURBAN OLUM MƏN…*

Oynağan balam.......................................................119
Qızımın balaları......................................................119

Daşqınım ....................................................................120
Daşqının bir yaşı ......................................................121
Daşqının səkkiz yaşına...............................................122
Daşqının doqquz yaşına .............................................123
Daşqının ad gününə....................................................123
Daşqına təbrik ............................................................124
İlkimin ilki...................................................................124
At minən çağı Daşqının...............................................125
Daşqınım on beş yaşında.............................................126
Gül açıb bağı Daşqının................................................128
Daşqının ad günü........................................................129
Bir nəvəm də gəldi dünyaya mənim...........................129
Nəvəm Toğrulun bir yaşına ........................................130
Toğrulun ad gününə ...................................................131
Toğrulun ad gününə ...................................................132
Ortancıl.......................................................................133
Şaiqin bir yaşına.........................................................133
Nəvəm Şaiqin ad gününə............................................134
Qızımın sonbeşiyi.......................................................135
Şaiqin dilindən ...........................................................135
Şaiqin ad gününə........................................................136
Şair babanın zarafatları...............................................137
Çinarəm......................................................................138
Çinarə balamın ad gününə ..........................................139
Çinarənin dörd yaşı ....................................................139
Alışan yurdunun Çinarəsiyəm ...................................140
Dərs oxuyur Çinarə.....................................................141
Çinarənin ad günü ......................................................141
Çinarənin on bir yaşı ..................................................142
12 yaşlı Çinarəm ........................................................143
Ayaq açır ağ Aytənim .................................................143
Aytən balamın dörd yaşı .............................................144
Çinarənin ay bacısı.....................................................145
Aytənim......................................................................146
Aytənin yeddi yaşı var ................................................147
Aytənim......................................................................148
Afaq dil açdı ..............................................................149
Qardaş balaları Afaqa və Aysel
8 mart təbriki..............................................................149
Ay parçası...................................................................150

Mehman......................................................................151
Ceyran.......................................................................151
Mən Elvinəm ..............................................................152
Şeirsevən balaca dostlarıma.........................................153
Sizə qurban olum mən .................................................154

Quzular dağa çıxdı *(poema)* .........................................156

**HÜSEYN KÜRDOĞLU**

# AYTƏNİN NƏĞMƏLƏRİ

*Bakı – «Sabah» – 2009*

Kompüter tərtibçisi: ***Nasir Alışanlı***

Formatı: 84x108 $^{1}/32$. Tirajı 300.
Həcmi: 10,75 ç.v. Sifariş №
Qiyməti müqavilə ilə.

*"Elm" RNPM-in mətbəəsində çap olunmuşdur (İstiqlaliyyət, 8)*